# Prezident Ağdam və Xocalıda



SƏHİFƏ 2-də

# Tramp Avropanı təhdid edir



SƏHİFƏ 7-də

'KASPİ' QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

ÜÇ ƏSRİN QƏZETİ

# Kaspi



19 İYUL ŞƏNBƏ 2025 № 27 (4228)

Qiyməti - 60 qəpik

www.kaspi.az




## AZƏRBAYCANI DAHA CƏLBEDİCİ EDƏN REYTİNQ

"Moody's" beynəlxalq reytinq agentliyi Azərbaycanın suveren kredit reytinqini "Ba1" səviyyəsindən "Baa3" səviyyəsinə (investisiya səviyyəsi) yüksəldərək reytinq üzrə proqnozu "müsbət" saxlayıb. Bu yüksəlmə iqtisadiyyatımıza nə kimi töhfə verəcək?

SƏHİFƏ 13-də




## MÜASİR İNFORMASİYA MƏKANINDA DİNİ ETİQAD

Milli mətbuatımızın 150 illik yubileyi ərəfəsində cəmiyyətimizin üzləşdiyi problemlər yenidən gündəmə gəlir. Onların sırasında dini mövzulardakı kənaraçıxmalar, xurafat, insanların saf hisslərindən müxtəlif məqsədlərlə istifadə cəhdləri xüsusi yer tutur.

SƏHİFƏ 4-də



## "UDUZANDA DA, UDANDA DA ATAM ALNIMDAN ÖPƏRDİ"

"Mən deyəndə ki, BDU-nun Tətbiqi riyaziyyat və kibernetika fakültəsinə qəbul olmaq istəyirəm, heç kim inanmırdı. Hətta bir müəllimim məni hazırlaşdırmaqdan imtina etdi. Amma qəbul oldum. Vunderkind deyildim, sadəcə o vaxt anladım ki, beynim çox yaxşı işləyir".

SƏHİFƏ 8-9-də




# 150 İLLİK ŞƏRƏFLİ YOL

Tarixinin ən ağır və çətin sınağından uğurla keçən müstəqil Azərbaycan mediası inamla inkişaf və tərəqqi yoluna davam edir. Şanlı Zəfər sınağından üzüağ çıxan Azərbaycan mediası bu gün milli iradənin, ideoloji gücün və ictimai həmrəyliyin təmsilçisidir.

### QÜRURU TACLANDIRAN ƏN ÖNƏMLİ MƏQAM

Milli mətbuatımız 150 yaşını qeyd etməyə hazırlaşır. Bu tarix media sahəsində çalışan minlərlə həmkarımız üçün qürurlu bir andır. Bu qüruru taclandıran ən önəmli məqam isə 150 yaşımızı ərazi bütövlüyünü bərpa etmiş qalib və müstəqil Azərbaycan dövlətinin mediası olaraq qeyd etməyimizdir.

### ULU ÖNDƏRİN MİLLİ MƏTBUATA QAYĞISI

Müstəqilliyimizin ikinci dəfə bərpasından sonra çoxsaylı qəzet və jurnalların fəaliyyətə başlamasına baxmayaraq, mediamızın sürətli inkişafı Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Dahi şəxsiyyət azad və müstəqil medianı güclü və demokratik Azərbaycanın əsas dayağı hesab edirdi.

SƏHİFƏ 5-də

Milli təfəkkürün formalaşmasında əsas vasitəçi

## "ƏKİNÇİ" MƏKTƏBİNİN YETİRMƏLƏRİ

**Mətbuatımız çətin və şərəfli inkişaf yolu keçib. 1875-ci ildə Həsən bəy Zərdabinin təşəbbüsü ilə yaradılan "Əkinçi" qəzeti həm də müstəqillik, azadlıq ideyalarının daşıyıcısı idi. Təsadüfi deyil ki, 1918-ci ildə Şərqin tarixində ilk demokratik Azərbaycan Cümhuriyyətini quranların əksəriyyəti məhz "Əkinçi" məktəbinin yetirmələri idi.**



## YENİ HƏDƏFLƏRƏ DOĞRU

Azərbaycan və Türkmənistan arasında münasibətlər qarşılıqlı hörmət və bərabərhüquqluluq prinsiplərinə əsaslanır. Bu gün iki ölkə həm logistika, həm də enerji sahəsində əməkdaşlıqda maraqlıdır.

SƏHİFƏ 3-də



## JURNALİSTİN KÖMƏKÇİSİ, YOXSA RƏQİBİ?

Süni intellekt artıq həyatımızın hər sahəsində var. O cümlədən jurnalistikada da... Süni intellekt məqalə yazır, şəkil seçir, aparıcılıq edir, videolar düzəldir və s. Bəs süni intellektin gələcək jurnalistika üçün nə kimi nəticələri ola bilər?

SƏHİFƏ 6-da



## "ƏN XOŞBƏXT DANİMARKALILAR"IN YAŞADIĞI KƏND

Draqor zəngin tarixə malik kiçik, mənzərəli əyalətdir. Kəndin adı "qayıqları sahilə çəkmək" anlamı verir. Kopenhagen yaxınlığında "gizlənmiş yer"də deyirlər bu kəndə. Kopenhagen hava limanından cəmi 12 km-lik məsafədə yerləşir.

SƏHİFƏ 15-də



### Alıcı sevinir, fermer şikayətlənir

Səhifə 11-də



### DİM-in "qapalı zona"sından reportaj

Səhifə 12-də



### Yerli istehsalçıların payı artır

Səhifə 14-də



### Rəqəmsal gələcəyə töhfə

Səhifə 10-da



### Nəhənglərin milyonluq savaşı

Səhifə 16-da

ÜÇ ƏSRİN QƏZETİ Kaspi



# PREZİDENT AĞDAM VƏ XOCALIDA

Ağdam və Xocalıya səfər edən Prezident İlham Əliyev bir sıra açılışlarda iştirak edib, görülən işlərlə maraqlanıb. Dövlət başçısına məlumat verilib ki, Ağdam Sənaye Parkında 650 daimi iş yeri yaradılıb.



Prezident İlham Əliyev Ağdam və Xocalıya səfər edib. Dövlət başçısı bir sıra açılışlarda iştirak edib, görülən işlərlə maraqlanıb, müvafiq tapşırıqlarını verib.

Dövlət başçısı Ağdama səfəri çərçivəsində "Tabaterra" MMC-nin Ağdam Sənaye Parkındakı tütün məmulatlarının istehsalı müəssisəsinin açılışında iştirak edib. Bildirilib ki, Prezident İlham Əliyevin 2021-ci il 28 may tarixli Fərmanına əsasən, İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində Ağdam rayonunda 190 hektar ərazidə Ağdam Sənaye Parkı yaradılıb. Parkın yaradılmasında məqsəd işğaldan azad edilmiş ərazilərin dirçəldilməsi, Qarabağın sənaye potensialının inkişafı, sahibkarlığın dəstəklənməsi, əhalinin istehsal sahəsində məşğulluğunun artırılmasıdır. Sənaye Parkının prioritet istiqamətləri tikinti materiallarının istehsalı, kənd təsərrüfatı məhsullarının qablaşdırılmasının, meyvə-tərəvəz konservlərinin, ət, süd, yem, gübrə istehsalının və emalının, xidmət sahələrinin, soyuducu kameraların təşkilidir. Parkda ümumi investisiyalarının həcmi 270 milyon manatdan çox olan 30 sahibkarlıq subyektinə rezidentlik, 4 sahibkara isə qeyri-rezidentlik statusu verilib. Artıq investorlar tərəfindən Sənaye Parkına 121 milyon manatdan çox investisiya yatırılıb, 650-dən artıq daimi iş yeri yaradılıb. İşlə təmin edilənlərin çoxu Ağdam və ətraf rayonların sakinləridir. Ağdam Sənaye Parkının ərazisinin 70 faizdən çoxu artıq sahibkarların istifadəsinə verilib. "Tabaterra" MMC-nin tütün məmulatlarının istehsalı müəssisəsinin açılması ilə Parkda fəaliyyət göstərən müəssisələrin sayı 10-a çatıb.




## ORTA MƏKTƏB VƏ KÖRPƏLƏR EVİNİN AÇILIŞI

Dövlət başçısı Ağdama səfəri çərçivəsində 960 şagird yerlik Ağdam şəhər 1 nömrəli tam orta məktəbin binasının açılışına da qatılıb. Bu təhsil ocağının təməli 2021-ci il mayın 28-də Prezident İlham Əliyev tərəfindən qoyulub. Binada 43 sinif, 16 inzibati otaq, 7 otaqdan ibarət STEAM adlandırılan elm, texnologiya, mühəndislik, sənət və riyaziyyat mərkəzi, müasir texnoloji avadanlıqla təchiz edilmiş fizika, kimya və biologiya laboratoriyaları, informatika və çağırışaqədərki hazırlıq otaqları, kitabxana, muzey, 352 yerlik yeməkxana fəaliyyət göstərəcək. Qeyd edək ki, bu gün Qarabağda təhsil sahəsində müasir tələblərə cavab verən maddi-texniki bazanın yaradılması ən önəmli məsələlərdən biridir.



Ağdam şəhərində 160 yerlik 1 nömrəli körpələr evi-uşaq bağçası da istifadəyə verilib. Qeyd edək ki, körpələr evi-uşaq bağçası binasının inşasına ötən ilin fevralında başlanılıb.

Məktəbəqədər təhsil müəssisəsinin binasında balacaların rahatlığının təmin olunması, həmçinin təlim-tərbiyə prosesinin yüksək səviyyədə aparılması üçün zəruri şərait yaradılıb. Binada oyun və yataq otaqları, musiqi, rəqs və idman zalları var.

### TARİXİ MƏSCİD BƏRPA OLUNUB

Prezident İlham Əliyev iyulun 18-də Ağdam rayonunun Qiyaslı kəndindəki tarixi məscidin binasının bərpadan sonra açılışında iştirak edib. Qeyd edək ki, Qiyaslı məscidi də Qarabağda erməni vandalizminə məruz qalan tarixi-dini abidələrimizdən idi. Ağdam rayonunun Ermənistan silahlı qüvvələri tərəfindən işğalı zamanı mal-qara tövləsi kimi istifadə edilən məscid binası ciddi dağıntılara məruz qalıb, dam örtüyü və günbəzlər tamamilə dağıdılıb. Məscidin bərpası işləri Heydər Əliyev Fondu tərəfindən aparılıb. Bərpa layihəsi hazırlanarkən məscidin ilkin görkəmini qorumaq məqsədilə arxiv materiallarından və videoqrafik mənbələrdən istifadə olunub. Qiyaslı məscidi Nazirlər Kabinetinin qərarı ilə 2001-ci ildən yerli əhəmiyyətli daşınmaz tarixi və mədəniyyət abidələri siyahısındadır.

## 28 AİLƏ YAŞAMAQ ÜÇÜN TƏZƏBİNƏ KƏNDİNƏ QAYIDIB

Daha sonra Xocalıya səfər edən Prezident İlham Əliyev Təzəbinə kəndində fərdi evlərin və infrastrukturun bərpası sahəsində görülən işlərlə tanış olub. Dövlət başçısı əvvəlcə kəndə köçən Məhəmməd Fərəcovun evinə baş çəkib.

Kənddə 2025-ci ilin sonunadək ümumilikdə 197 fərdi ev hazır olacaq. Gələn il isə daha 159 fərdi evin təmir-tikintisi yekunlaşacaq. 2025-ci il iyulun 14-də 28 ailə - 125 nəfər yaşamaq üçün kəndə qayıdıb. Hazırda kəndin müasir sosial infrastrukturunun qurulması istiqamətində işlər davam edir.

Dövlət başçısı Xocalı kərpic zavodunun açılışında da iştirak edib. Bu istehsal müəssisəsi rayonun Daşbulaq kəndində inşa olunub. Layihə dəyəri 8,5 milyon manat olan müəssisədə 60 nəfər daimi işlə təmin edilib. İşçilərin əksəriyyəti işğaldan azad edilmiş rayonların sakinləridir. Gələcəkdə zavodda iş yerlərinin sayının 120-yə çatdırılması nəzərdə tutulur. Müəssisənin illik istehsal gücü 16,2 milyon ədəd kərpic təşkil edir. Zavodda müasir alman və Türkiyə texnologiyaları, eyni zamanda, enerji səmərəliliyinə və ətraf mühitin qorunmasına yönəlmiş texnologiyalar tətbiq olunur. Zavod üçün əsas xammal mənbəyi Xocalı şəhərinin yaxınlığında yerləşən "Xocalı" gil yatağıdır.

Prezident İlham Əliyev həmçinin Xocalının Xanyurdu kəndində olub, kəndə köçən bir qrup sakinlə görüşüb.

# YENİ HƏDƏFLƏRƏ DOĞRU

Azərbaycan və Türkmənistan arasında münasibətlər qarşılıqlı hörmət və bərabərhüquqluluq prinsiplərinə əsaslanır. Bu gün iki ölkə həm logistika, həm də enerji sahəsində əməkdaşlıqda maraqlıdır.



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Son illərdə Azərbaycanın türk dövlətləri ilə əməkdaşlıq tendensiyasında yüksək dinamika müşahidə olunur. Xüsusilə Mərkəzi Asiya ölkələri ilə qurulan münasibətlər strateji mahiyyət daşımağa başlayıb. Bu, mövcud beynəlxalq reallıqlar fonunda region ölkələrinin maraqlarına tamamilə cavab verir. Eyni dil, din, mədəniyyət və digər amillər mövcud əməkdaşlıq imkanlarının genişləndirilməsi istiqamətində qarşıya çıxa biləcək manelərin qısa müddətdə qarşılıqlı hörmət və anlaşma şəraitində ortadan qaldırılmasına zəmin yaradır. Azərbaycanın Xəzərdə qonşusu olan və strateji coğrafi mövqeyə malik Türkmənistanla əlaqələrin inkişafı da Bakının prioritetləri sırasındadır.

### BUGÜNKÜ ƏLAQƏLƏR ÜÇÜN ƏSAS ZƏMİN

Bu baxımdan iyulun 16-da Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədovun Azərbaycana səfəri, Prezident İlham Əliyevlə apardığı müzakirələr xüsusi önəm daşıyır. Azərbaycan Prezidenti İlham Əliyev Türkmənistanla münasibətləri belə xarakterizə edir: "Xalqlarımızı dərin qardaşlıq ənənələri birləşdirir və müstəqillik dövründə bu əlaqələr daha da gücləndi. Biz bir çox sahələrdə uğurla əməkdaşlıq edirik və iki ölkə müstəqil siyasət apararaq gələcəyə inamla baxır. Bizim aramızdakı tarixi əlaqələr bugünkü əlaqələr üçün əsas zəmindir və əminəm ki, Sizin səfəriniz bizim münasibətlərimizə yeni təkan verəcək".



## QARDAŞLIQ, MEHRİBAN QONŞULUQ VƏ ƏMƏKDAŞLIQ

Qurbanqulu Berdiməhəmmədov isə bildirib ki, Azərbaycana səfərinin əsas məqsədi ikitərəfli münasibətləri daha da dərinləşdirmək və inkişaf etdirmək, əldə olunan nailiyyətləri möhkəmləndirmək, yeni layihələrin və istiqamətlərin həyata keçirilməsinə əlavə stimul verməkdir: "Ümumilikdə Türkmənistan-Azərbaycan dövlətlərarası əlaqələrinin bugünkü səviyyəsini xarakterizə edərkən onları üç sözlə ifadə edərdim: qardaşlıq, mehriban qonşuluq və əməkdaşlıq.

Biz möhkəm tarixi bünövrəyə, iki xalqın ortaqlığına və qohumluğuna, bir-birinə qarşılıqlı ehtiyacın olması anlayışına, xalqlarımızın və dövlətlərimizin rifahı, onların əmin-amanlığı və tərəqqisi naminə məcmu siyasi, iqtisadi, resurs potensialından istifadə etməyə hazır olmağa əsaslanırıq.

Qanunauyğun haldır ki, Türkmənistan və Azərbaycan bu gün xarici siyasətdə, siyasi, iqtisadi, mədəni və humanitar sahələrdə sanballı və geniş əməkdaşlıq gündəliyinə malikdir. Hər iki tərəfin səyləri sayəsində əməkdaşlığımız məqsədyönlülüyü və konkretliyi ilə seçilir, sabit və davamlı xarakter daşıyır, yaxşı dinamika nümayiş etdirir. Bunun əsas, həlledici amili ölkələrimizin liderləri arasında əldə edilmiş ən yüksək səviyyədə qarşılıqlı anlaşma və etimaddır. Bu, bizə ikitərəfli əməkdaşlığın bütün məsələləri üzrə düzgün və vaxtında qərarlar verməyə, əldə olunmuş razılaşmaların həyata keçirilməsini təmin etməyə imkan yaradır".

### FİKİR AYRILIQLARINA SON QOYAN RAZILAŞMA

Xatırladaq ki, iki ölkə arasında diplomatik münasibətlərinin əsası 1992-ci il iyunun 9-da qurulub. Həmin vaxtdan bu günədək dövlət başçıları səviyyəsində qarşılıqlı səfərlər həyata keçirilib və müxtəlif sahələr üzrə əməkdaşlıq müqavilələri imzalanıb. İki ölkə arasında münasibətlər qarşılıqlı hörmət və bərabərhüquqluluq prinsiplərinə əsaslanır. Bu gün iki ölkə həm logistika, həm də enerji sahəsində əməkdaşlıqda maraqlıdırlar. Məhz tərəflər arasında uzun müddət mübahisə predmeti olan "Dostluq" neft yatağının birgə işlənilməsi ilə bağlı 2021-ci ildə Türkmənistan və Azərbaycan arasında razılıq əldə edilib. Tərəflər bu yatağa "Dostluq" adını verməklə həm də mövcud münasibətlərin əsas mahiyyətini dünyaya nümayiş etdiriblər. Bakı və Aşqabad arasında imzalanan bu razılaşma tək iqtisadi fikir ayrılığına son qoyulduğunu yox, həm də siyasi birliyin yenidən inşa olunduğunu təcəssüm etdirir.



## "DOSTLUQ" ADI VERİLMİŞ QARABAĞ ATI

Qurbanqulu Berdiməhəmmədov Azərbaycana səfəri çərçivəsində Prezident İlham Əliyevlə birlikdə işğaldan azad edilmiş ərazilərdə də oldu. Füzuli və Şuşaya səfər özünün zənginliyi ilə seçilməklə yanaşı, həm də daha bir türk dövləti liderinin gəlişi ilə mühüm simvolik siyasi məna da kəsb edirdi. Prezident İlham Əliyevin Qurbanqulu Berdiməhəmmədova "Dostluq" adı verilmiş Qarabağ atını hədiyyə etməsi, Şuşada Yuxarı Gövhər Ağa məscidində liderlərin birgə dua etməsi səfərə, Türkmənistanla qarşılıqlı münasibətlərin inkişafına rəsmi Bakının verdiyi dəyər və diqqətin təzahürü idi. Xatırladaq ki, Prezident İlham Əliyev və Qurbanqulu Berdiməhəmmədov Füzulinin baş planı ilə tanış olublar, Şuşada işğal dövründə güllələnmiş mədəniyyət və incəsənət xadimlərinin heykəllərinə də baxıblar.

### İQTİSADİ ƏLAQƏLƏR STATİSTİK RƏQƏMLƏRDƏ

2025-ci ilin yanvar-may aylarında Azərbaycanla Türkmənistan arasında ticarət əməliyyatlarının həcmi 118,5 milyon ABŞ dollarına bərabər olub. Bu, 2024-cü ilin eyni aylarındakı göstərici ilə müqayisədə 84,5 milyon ABŞ dolları və ya 41,6% azdır.

Bu ilin yanvar-may aylarında Azərbaycana Türkmənistandan 174,4 milyon kubmetr həcmində təbii qaz idxal edilib. Türkmənistandan təbii qazın idxalı ötən ilin eyni dövrü ilə müqayisədə həcm ifadəsi ilə 120,4 milyon kubmetr və ya 40,8%, dəyər ifadəsi ilə 40,7% azalıb.

Rəqəmlərdən də göründüyü kimi, Xəzərdə qonşu olan iki yaxın türk dövləti arasındakı iqtisadi əlaqələrdə son illərdə geriləmə müşahidə olunur. Təbii ki, bu cür vəziyyət hər iki tərəfi qane etmir. Son səfərin məlum mənfi tendensiyanın durdurulmasına töhfə verəcəyi proqnozlaşdırılır. Bakı və Aşqabad əlaqələrin canlanması və iqtisadi maraqların qarşılıqlı təmini istiqamətində əlavə imkanlar axtarışındadır.




# MÜASİR İNFORMASİYA MƏKANINDA DİNİ ETİQAD

Şamaxıda "Müasir informasiya məkanı və dini etiqad azadlığı" mövzusunda keçirilən konfransda ilahiyyatçılarla media nümayəndələri arasında koordinasiyanın vacibliyi xüsusi olaraq vurğulandı.

**İLHAM QULİYEV**

Milli mətbuatımızın 150 illik yubileyi ərəfəsində cəmiyyətimizin üzləşdiyi problemlər də yenidən gündəmə gəlir. Bu problemlərin sırasında tez-tez rastlaşdığımız dində xurafat, insanların saf hisslərindən istifadə cəhdləri xüsusi yer tutur. Dindən siyasi məqsədlərlə istifadənin ciddi müzakirələrə yol açdığı bir zamanda bu problemin aktuallığı daha da artır. Dərhal da gündəmə dini savadlılığın artması, insanların maarifləndirilməsi kimi məsələlər gəlir. Bu işlərin görülməsində təbii ki, mətbuatın da üzərinə xüsusi yük düşür. Bu baxımdan Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Medianın İnkişafı Agentliyinin dəstəyi ilə iyulun 15-16-da Şamaxıda "Müasir informasiya məkanı və dini etiqad azadlığı" mövzusunda keçirdiyi konfrans lap yerinə düşdü. "Global Media Group"un media dəstəyi ilə keçirilən konfransda müvafiq dövlət qurumlarının rəhbərləri, mətbuat nümayəndələri, ilahiyyatçılar, din xadimləri iştirak edirdilər. Konfransın açılış mərasimində, panellərdə çıxış edənlər bu sahədəki durumu analiz edərək, həm problemləri qabartmağa çalışdılar, həm də çıxış yollarını göstərməyə cəhd etdilər.

### RƏNGARƏNG YANAŞMALAR, FƏRQLİ BAXIŞ BUCAQLARI

Diqqət çəkən məqamlardan biri panellərdəki məruzəçilərin müxtəlif fikirli olmaları, mövzulara fərqli aspektlərdən giriş etmələri idi. Məsələn, "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-nin sədr müavini Rafiq Həşimov mövzuya bəşəri dəyərlər prizmasından baxmağa çalışdısa, "Milli.az" saytının baş redaktoru Elçin Alıoğlu daha çox din xadimləri ilə bağlı yaşanan xoşagəlməzlikləri qabartdı. "Report İnformasiya Agentliyi" MMC-nin direktoru və Mənəvi Dəyərlərin Təbliği Fondunun Himayəçilik Şurasının üzvü Fuad Hüseynəliyev dövlət qurumlarının və media orqanlarının problemin həllinə necə töhfə verə bilmələri barədə təkliflərlə çıxış etdi. Şair-yazıçı Şəhriyar Del Gerani din ocaqlarının həm də elm ocaqları kimi formalşmasının vacibliyinə toxundu.

Ən maraqlısı o oldu ki, tədbir boyu müxtəlif dünyagörüşlərinə malik qonaqlar arasında hər hansı ciddi fikir ayrılığı yaşanmadı. Hətta tədbirdə iştirak edən din xadimlərindən birinin həmkarları haqqında tənqidi fikirlərinə görə Elçin Alıoğluna təşəkkür etdiyinin də şahidi olduq. Mətbuatda, sosial şəbəkələrdə daim ateist fikirləri ilə populyarlaşan "azvision.az" saytının baş redaktoru Vüsal Məmmədov da çıxışları kifayət qədər tolerantlıq nümayiş etdirərək dinlədi.

### DİNİ SFERADAKI PROBLEMLƏR SƏLİQƏ İLƏ TƏSNİFLƏNDİRİLDİ

Müzakirələr nəticəsində cəmiyyətin dini sferada üzləşdiyi problemlər səliqə ilə təsnifləndirildi. Məsələn, əsas diqqətçəkən problemlərdən biri kimi dindən siyasi məqsədlərlə istifadə meylləri qabardıldı. Çıxışçılar bu istiqamətdə dövlət qurumlarının, din xadimlərinin və medianın əlaqələndirilmiş fəaliyyətinə ehtiyac olduğu qənaətinə gəldilər. Deputat Tamam Cəfərova regionda yeni reallıq yaradan Azərbaycanın inkişafına əsas təhdidlər sırasında dinlə bağlı məsələlərin də yer aldığını vurğuladı.



Ramin Məmmədov

## XURAFATA QARŞI MÜBARİZƏ AKTUALDIR

Digər bir problem kimi dində xurafat meylləri gündəmə gətirildi, bu istiqamətdəki problemlər çılpaqlığı ilə səsləndirildi. Mətbuat Şurasının sədri Rəşad Məcid Azərbaycan mətbuatının əsas qayəsinin cəhalətə və xurafata qarşı mübarizə aparmaq olduğunu yada saldı.

Cəmiyyətin ümumi savadlılığı, oxu mədəniyyəti ilə bağlı çatışmazlıqlar da gündəmə gətirildi. İnsanların kitaba, oxuya yönəldilməsinin vacibliyi vurğulandı. Şair-yazıçı Şəhriyar Del Gerani Azərbaycan məscidlərində kitabxanaların formalaşdırılmasını təklif etdi. Komitənin sədr müavini Gündüz İsmayılov ilin sonuna qədər 250-yə yaxın məsciddə bu cür kitabxanaların mövcud olacağını diqqətə çatdırdı.

## DİNİN RUHANİ GÜCÜ VƏ MEDİANIN İNFORMASİYA TƏSİRİ



**Fotolar:** Rüfət Mikayılov Global Photostock

Müzakirələr əsnasında son zamanlar mətbuatda dinin tənqidi ilə bağlı meyllərin artmasına da toxunuldu. Bunun bir tərəfdən faydalı olması qeyd edilməklə yanaşı, bəzən ifrata varıldığı da diqqətə çatdırıldı. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov bildirdi ki, din media vasitəsilə yalnız ibadət və mərasimlər kontekstində deyil, həm də sosial və mənəvi dəyərlər sistemi kimi təqdim edilir. Buna görə də dinin ruhani gücü və medianın informasiya təsiri arasında gözlə görünməyən, lakin çox sıx və möhkəm bağ mövcuddur.

Müzakirələrin gedişində dinin sağlam təbliğində medianın rolundan danışılarkən Baku TV-də yayımlanan "Amin" verilişinin adı müsbət mənada bir neçə dəfə qeyd edildi. "Report İnformasiya Agentliyi" MMC-nin direktoru Fuad Hüseynəliyev bu verilişi yaxşı bir nümunə kimi təqdim etdi, burada mövzulara anlaşılan fəlsəfi dildə toxunulmasını alqışladı.

### İLAHİYYATÇILARLA JURNALİSTLƏR ARASINDA KOORDİNASİYA

Müzakirələrdə ilahiyyatçılarla media nümayəndələri arasında koordinasiyanın vacibliyi də xüsusi olaraq vurğulandı. Azərbaycan Jurnalistlər Şəbəkəsi İctimai Birliyinin sədri Ayaz Mirzəyev qeyd etdi ki, Azərbaycan mediası milli maraqları və mənəvi dəyərləri hər şeydən uca tutmalı, ümummilli məsələlərdə vahid mövqe ortaya qoymalı, dövlətçiliyin və vətəndaş birliyinin əsaslarını sarsıtmaq istəyən daxili və xarici dairələrə qarşı barışmaz olmalıdır. "APA Holding" MMC-nin prezidenti Vüsalə Mahirqızı da bu sahədə ayıq-sayıqlığın, həssaslığın artırılmasına ehtiyac olduğunu bildirdi.

# 150 İLLİK ŞƏRƏFLİ YOL

Tarixinin ən ağır və çətin sınağından uğurla keçən müstəqil Azərbaycan mediası inamla inkişaf və tərəqqi yoluna davam edir. Şanlı Zəfər sınağından üzüağ çıxan Azərbaycan mediası bu gün milli iradənin, ideoloji gücün və ictimai həmrəyliyin təmsilçisidir.



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Milli mətbuatımız 150 yaşını qeyd etməyə hazırlaşır. Bu tarix media sahəsində çalışan minlərlə həmkarımız üçün həm sevincli, həm də qürurlu bir andır. Bu qüruru taclandıran ən önəmli məqam isə 150 yaşımızı ərazi bütövlüyünü, suverenliyini tam olaraq bərpa etmiş qalib və müstəqil Azərbaycan dövlətinin mediası olaraq qeyd etməyimizdir. Qalib dövlətin qalib mediası adı bu gün yubiley ərəfəsində Azərbaycanın media təmsilçiləri üçün ən böyük hədiyyədir. Bu reallığın memarı isə əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan Zəfər yolunu uğurla davam etdirən, məntiqi sonluğa çatdıran Prezident İlham Əliyevdir.

### “ƏKİNÇİ” MƏKTƏBİNİN YETİRMƏLƏRİ

Azərbaycan mətbuatı 150 il ərzində çətin və şərəfli inkişaf yolu keçib. 1875-ci ildə görkəmli ziyalı, mütəfəkkir Həsən bəy Zərdabinin təşəbbüsü ilə yaradılan “Əkinçi” qəzeti həm də müstəqillik, azadlıq ideyalarının daşıyıcısı idi. Təsadüfi deyil ki, 1918-ci ildə Şərqin tarixində ilk demokratik Azərbaycan Cümhuriyyətini quranların əksəriyyəti məhz “Əkinçi” məktəbinin yetirmələri, “Əkinçi” ideyalarının daşıyıcıları idi. Həmin illərdə yaradılan çoxsaylı mətbuat orqanları xalqın oyanışında, milli təfəkkürün, özünüdərkin formalaşmasında əsas vasitəçi, tribuna rolunu oynayırdı.

### ULU ÖNDƏRİN MİLLİ MƏTBUATA QAYĞISI

Müstəqilliyimizin ikinci dəfə bərpasından sonra çoxsaylı qəzet və jurnalların fəaliyyətə başlamasına baxmayaraq, mediamızın sürətli inkişafı Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Dahi şəxsiyyət azad və müstəqil medianı güclü və demokratik Azərbaycanın əsas dayağı hesab edirdi. Ümummilli Liderin mətbuatın problemləri ilə yaxından maraqlanması, göstərdiyi diqqət və qayğı müstəqil mediamızın inkişafında dönüş nöqtəsi sayılır.

Məhz Heydər Əliyevin təşəbbüsü ilə qəbul edilən Konstitusiyamızda media azadlığının hüquqi cəhətdən təsbit olunması mətbuatın fəaliyyətində geniş imkanlar açdı. Bu, mətbuatın “dördüncü hakimiyyət” kimi de-yure tanınması demək idi. Dahi şəxsiyyətin mətbuat nümayəndələri ilə daim səmimi təmasları, onlarla çoxsaylı görüşləri problemlərin vaxtında aşkarlanması və maneələrə çevik reaksiya verilməsinə zəmin yaradırdı. Bunun məntiqi nəticəsi olaraq Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə 1998-ci ildə “Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında” Fərman imzalandı. Bununla müstəqil və azad medianın fəaliyyəti önündə ən böyük əngəl sayılan senzura ləğv edildi. 1999-cu ildə “Kütləvi informasiya vasitələri haqqında” yeni Qanun qəbul edildi. Yeni mətbuat orqanlarının daha asan qeydiyyatına imkan yaradıldı. 2000-ci ilin martında imzalanan Sərəncamla “2000-2001-ci illərdə Kütləvi İnformasiya Vasitələrinin maddi-texniki şəraitinin yaxşılaşdırılması üzrə tədbirlər Proqramı” təsdiqləndi. Medianın maddi problemlərinin həllində ən önəmli məqamlardan biri Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə qəzetlərin “Azərbaycan” nəşriyyatına yaranmış borclarının tamamilə dondurulması idi. 2003-cü ilin martında Azərbaycan Mətbuat Şurasının yaradılması mətbuat sahəsində koordinasiyalı fəaliyyətin təməlini qoydu.





## UĞURLA DAVAM ETDİRİLƏN ƏNƏNƏ

Ulu Öndərin mətbuatın inkişafına göstərdiyi diqqət və qayğı ənənəsi Prezident İlham Əliyev tərəfindən də davam etdirilir. Bu gün Azərbaycan dövlətinin media siyasətinin əsasını müstəqil və dayanıqlı mətbuatın formalaşması və inkişafı təşkil edir.

Azərbaycan Prezidentinin 2006-cı il 8 fevral tarixli Sərəncamı ilə qəzetlərin “Azərbaycan” nəşriyyatına olan bütün borcları tamamilə silindi. Bu addım həmin dövr üçün ölkəmizdə medianın inkişafı istiqamətində daha bir dönüş nöqtəsi sayılır. 2010-cu ildə qəbul edilən “Elektron media haqqında” Qanun, Medianın İnkişafı Agentliyi (MEDİA) publik hüquqi şəxsin yaradılması haqqında fərman, “Media haqqında” yeni Qanunun qəbulu müasir dövrün tələblərinə cavab verən, yeni yanaşmalar və trendlərlə ayaqlaşan, milli-mənəvi dəyərləri, dövlətçilik maraqlarını nəzərə alan müstəqil mediamızın formalaşması və özünütəsdiqi baxımından müstəsna əhəmiyyətə malikdir.

### PEŞƏKAR, VƏTƏNPƏRVƏR, OPERATİV

Bu diqqət və qayğının nəticəsi olaraq Azərbaycan mediası özünün peşəkarlığını, vətənpərvərliyini, operativliyini 2020-ci il Vətən müharibəsi, 2023-cü ilin antiterror tədbirlərində bütün dünyaya nümayiş etdirdi. Həqiqətlərin beynəlxalq aləmə çatdırılmasında, vətəndaşların informasiya tələbinin ödənilməsində mediamız var gücü ilə çalışdı. Mətbuat təmsilçilərimiz düşmənlə tək informasiya cəbhəsində deyil, həm də real döyüşlərdə üz-üzə gələrək onu ağır məğlubiyyətə uğratdı. Tarixinin ən ağır və çətin sınağından uğurla keçən müstəqil Azərbaycan mediası inamla inkişaf və tərəqqi yoluna davam edir. Şanlı Zəfər sınağından üzüağ çıxan Azərbaycan mediası bu gün milli iradənin, ideoloji gücün və ictimai həmrəyliyin təmsilçisidir.

150 yaşın mübarək, qalib dövlətin qalib jurnalisti!



MEDİA TƏMSİLÇİLƏRİ SÜNİ İNTELLEKTİN İMKANLARINDAN NECƏ YARARLANIRLAR?

# JURNALİSTİN KÖMƏKÇİSİ, YOXSA RƏQİBİ?

Süni intellektdən aktiv istifadə edənlər arasında media təmsilçiləri də var. İndi onları bir sual düşündürür: süni intellekt jurnalistləri işsiz qoya bilərmi? Bu suala cavablar isə birmənalı deyil.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Süni intellekt artıq həyatımızın hər sahəsində var. O cümlədən jurnalistikada da... Süni intellekt məqalə yazır, şəkil seçir, aparıcılıq edir, videolar düzəldir və s. Bəs süni intellektin gələcək jurnalistika üçün nə kimi nəticələri ola bilər?

### “JURNALİSTİKA DAHA ETİBARLI MƏNBƏYƏ ÇEVRİLƏCƏK”

Azərbaycan Mətbuat Şurasının İdarə Heyətinin üzvü Hacıbəy Heydərli qeyd edir ki, özü də müxtəlif məlumatların əldə olunmasında, dəqiqləşdirilməsində, mənbələrin toplanmasında süni intellektdən istifadə edir: “Onun verdiyi imkanlardan istifadə edərək jurnalistlər bir çox işləri yerinə yetirə bilirlər. Xüsusən də korrektə, redaktə, tərcümə və digər texniki sahələr süni intellekt vasitəsilə yaxın zamanlarda sıradan çıxacaq. Bu, dövrün reallığıdır. Amma jurnalistika yaradıcı sahə olduğu üçün jurnalistin işini tam yerinə yetirə bilməz”.

H.Heydərlinin sözlərinə görə, süni intellekt jurnalistikanı daha da peşəkarlaşdıracaq: “Süni intellekt araşdırma jurnalistikası, canlı reportaj, müsahibə janrına təsir edə bilməz. Əksinə, jurnalistlərin daha çevik, yaradıcı olmasına kömək edə bilər. Süni intellektin verdiyi məlumat tam fakt da deyil. Çünki o, bizə yalnız internetdə olan məlumatlar əsasında informasiya verir. Düşünürəm ki, süni intellektin jurnalistlərə ehtiyacı olacaq, nəinki jurnalistlərin süni intellektə”.

### “MƏNFİ TƏSİRLƏRİNİN DƏ OLACAĞI ŞÜBHƏSİZDİR”

“Şərq” qəzetinin təsisçisi və baş redaktoru Akif Aşırlı isə süni intellektin məlumat kirliliyinə səbəb olacağını düşünür: “Özüm istifadə etmirəm. Amma hər bir texnologiyanın, yeniliyin müsbət, mənfi tərəfləri var. Süni intellektin mətbuatımıza təsiri yaxın illərdə kifayət qədər hiss olunacaq. Təbii ki, mənfi təsirlərinin də olacağı şübhəsizdir. Çünki süni intellektə verilən tapşırıqlar kifayət qədər əhatəli olmalıdır. Əgər jurnalist bu məlumatın doğru və ya yanlış olduğundan xəbərsizdirsə, yanlış informasiyalar yayımlana bilər. Həmçinin jurnalistika fərdi yaradıcılıq məhsuludur. O səbəbdən süni intellektin jurnalisti tamamilə əvəz etməsi şübhəlidir. Amma yeni bir texnoloji proses olaraq media bundan kənarda qala bilməz”.

### “SÜNİ İNTELLEKT SADƏCƏ ALƏTDİR”

“Oxu.az” saytının baş redaktoru Ülvi Səfərovun fikrincə, süni intellekt sayəsində jurnalist daha da operativləşəcək: “Saytımızda süni intellektdən şəkillərin yaradılmasında, materialların sinxron hazırlanmasında geniş istifadə edirik. Mahiyyət olaraq başa düşmüşük ki, süni intellektsiz gələcəkdə nəsə etmək çox çətin olacaq. Amma o, sadəcə alətdir. Tərcüməni jurnalist kimi edə bilər. Ancaq emosiyaları, yanaşmanı jurnalist kimi oxucuya çatdıra bilməz. Bu səbəbdən jurnalistika hər zaman yaşayacaq. İnformasiyanı doğru formada oxucuya çatdıra biləcək yalnız insandır. Çünki jurnalist bilir ki, oxucu nə istəyir, necə istəyir. Buna uyğun olaraq yazı ortaya çıxır. Süni intellekt bir təhlükə deyil. Əksinə, jurnalistikanı sürətləndirən, operativ şəkildə işləməyə şərait yaradan bir vasitədir”.

## “5-6 JURNALİSTİN İŞİNİ SÜNİ İNTELLEKTİN KÖMƏYİ İLƏ GÖRƏ BİLƏCƏYİK”

“Azvision.az” saytının baş redaktoru Vüsal Məmmədov da peşəkar fəaliyyətində süni intellektin dəstəyindən yararlanır: “Biz tərcümə və şəkil yaratmaq üçün istifadə edirik. Amma yüz faizlik nəticə almaq olmur. Mən axtarışda, tərcümədə, şəkil düzəltməkdə bir neçə süni intellekt alətindən istifadə edirəm. Amma heç birinə işimi tam etibar etmirəm. Onlar sadəcə mənim köməkçilərimdir”.

V.Məmmədovun sözlərinə görə, jurnalistikada elə janrlar var ki, insanın şəxsiyyətindən, dünyagörüşündən, hadisəyə baxışından yaranır. Belə insanları süni intellekt əvəz edə bilməz: “Xəbər yazmaq, tərcümələr etməyi şablonlaşdırmaq mümkündür. O səbəbdən işin standart hissəsini görən əməkdaşlara ehtiyac qalmayacaq. Amma yaradıcılığı, kreativliyi olan insanlar öz işlərində qalacaqlar. Əksinə, onlar süni intellektin gələcəkdə istifadə etməsi üçün materiallar yaradacaqlar. Gələcəkdə 5-6 jurnalistin gördüyü işi bir jurnalist süni intellektin köməyi ilə görə biləcək”.

### “RƏQABƏT HİSSİ YARADIR”

“Bakupost.az” saytının baş redaktoru Elçin Zahiroğlu süni intellekti jurnalistika üçün nəinki təhdid, əksinə, fürsət hesab edir: “Sadəcə bu fürsətdən düzgün yararlanmaq lazımdır. Mətni süni intellektə etibar etmək olmaz, müəlliflər, redaktorlar indi daha “gözüaçıq” və məsuliyyətli olmalıdır. Ən ideal model odur ki, süni intellekt faktları və strukturu verir, insan isə ona üslub, ruh, yanaşma qatır. Ortaya nə robot mətni çıxır, nə də yorğun jurnalistin şablon yazısı - ikisinin sintezindən balanslı, oxunaqlı bir iş alınır. Süni intellekt heç bir halda jurnalistikaya təhdid deyil”.

E.Zahiroğlu da süni intellektlə işlərini asanlaşdırır: “Şəxsən mənim üçün süni intellekt bir tərəfdən köməkçidir, digər tərəfdən rəqib. O məni daim “diri saxlayır”. Məsələn, başlıq fikirləşəndə, ya da fikirlərimi konturlaşdıranda “ChatGPT”dən istifadə edirəm. Bəzən elə təklif verir ki, düşünürəm: “Bunu niyə özüm fikirləşmədim?” Bu suallar rəqabət hissi yaradır, adam daha fərqli variantlar axtarmağa başlayır. Bir də süni intellektin kömək etdiyi daha bir tərəf telefonla yazı hazırlamaqdır. Tədbirlərdə, ya da yolda olanda yazmaq istədiklərimi səslə deyirəm, süni intellekt onu mətnə çevirir. Bu, əslində, bizim sahədə inanılmaz rahatlıqdır. Bir sözlə, süni intellekt bizim peşədə nə rəqib, nə də tam müəllif ola bilər. O, sadəcə yaxşı bir köməkçidir”.




**Fotolar:** Tapdiq Abdullayev/Rüfət Mikayılov/Global Photostock

Üç əsrin qəzeti Kaspi


# TRAMP AVROPANI TƏHDİD EDİR




ABŞ işgüzar aləmi Prezident Donald Trampın yeni tarif qərarından narahatdır. Onları qorxudan odur ki, iqtisadi daralma ölkəni tənəzzülə uğrada və qlobal iqtisadi artımı yavaşlada bilər.



AZƏR NURİYEV

ABŞ Prezidenti Donald Tramp qərarları ilə dünyanı heyrətləndirməkdə davam edir. Bu dəfə Meksika və Avropa İttifaqından (Aİ) gələn mallara 30% rüsum tətbiq etdiyini açıqlaması dünyada şok effekti yaradıb. Mexiko və Brüsselə göndərdiyi iki mesajda Ağ Evin rəhbəri bildirib ki, avqustun 1-dən etibarən Aİ ilə mövcud olan ticarət kəsirini aradan qaldırmaq üçün bu ölkələrdən gələn mallara 30% rüsum tətbiq edəcəklər. Ardınca da danışıqların davam etdirilməsinin mümkünlüyünü də istisna etməyib.

### İŞGÜZAR ALƏM NARAHATDIR

ABŞ işgüzar aləmi prezidentin məlum qərarlarından narahatdır. Onu qorxudan odur ki, iqtisadi daralma ölkəni tənəzzülə uğrada və qlobal iqtisadi artımı yavaşlada bilər. Düzdür, Tramp azalmanın sələfi Co Baydenin dövründən başladığını bildirir, lakin ekspertlər bunun idxalda görünməmiş artımla əlaqədar olduğunu söyləyirlər. Mövcud durum ondan ibarətdir ki, Trampın tətbiq etdiyi tariflər, onlara cavab olaraq ABŞ-yə qarşı atılan addımlar dünya iqtisadiyyatında böyük xaos yaradıb. ABŞ-nin analitik mərkəzləri, tanınmış alim və iqtisadçılar verilən qərarların daha çox ölkənin özünə mənfi təsir edəcəyinə dair xəbərdarlıqlarla çıxış edirlər.

## AVROPA İTTİFAQININ YENİ TƏRƏFDAŞI ÇİN OLACAQ?

Trampın məktubuna Avropa Komissiyasının sədri Ursula Fon der Lyayenin cavabı belə olub ki, Aİ ixracına 30% tarif tətbiq etmək Atlantik okeanın hər iki tərəfindəki biznes və istehlakçıların zərərinə olacaq, əsas transatlantik təchizat zəncirlərini sarsıdacaq. Onun sözlərinə görə, Aİ-nin maraqlarını qorumaq üçün bütün lazımi addımlar atılacaq, müvafiq cavab tədbirləri görüləcək. Əlavə edib ki, Aİ yeni ticarət tərəfdaşları da axtaracaq. Yeni ticarət tərəfdaşı dedikdə, çox güman ki, Çin nəzərdə tutulur. "Bild"in məlumatına görə, Almaniya Kansleri Fridrix Merts ABŞ ilə tarif danışıqlarının uğursuz olacağı barədə xəbərdarlıq edib. Meksika Prezidenti Klaudiya Şeinbaum razılıq əldə olunacağına əminliyini ifadə edib: "Biz ABŞ hökuməti ilə hansı sahələrdə işləyə biləcəyimizi çox yaxşı bilirik. Bir məsələ var ki, o, heç vaxt danışıqlar mövzusu ola bilməz: bu da ölkəmizin suverenliyidir".

Qeyd edək ki, Tramp Aİ və Meksika ilə yanaşı, Kanada, Yaponiya və Braziliya da daxil olmaqla, 23 digər ticarət tərəfdaşına da oxşar məzmunlu məktublar göndərib. Bu məktublarda 20%-dən 50%-ə qədər dəyişən ümumi tariflər, eləcə də mis idxalına qarşı 50% rüsum tətbiqi nəzərdə tutulub. Fransa Prezidenti Emmanuel Makron bildirib ki, ABŞ-nin Aİ-yə 30 faizlik gömrük rüsumunu qəti şəkildə bəyənmir. İtaliya isə ümid edir ki, ABŞ ilə ədalətli tarif razılaşması əldə olunacaq.



Ursula Fon der Lyayen



Klaudiya Şeinbaum

## ƏN ÇOX HANSI ÖLKƏLƏR ZƏRƏR GÖRƏCƏK?

İddialara görə, bu məsələdə daha çox itirən iki ölkə ola bilər. ABŞ-nin avtomobil, polad və dəzgahlar üçün əsas bazar olduğu Almaniya ilə birlikdə, inkişaf etmiş əczaçılıq sənayesi ilə İrlandiya ön sıralardadır. Aİ-nin ən böyük iqtisadiyyatı olan Almaniya ixraca arxalandığı üçün xüsusi təzyiq altındadır, ABŞ ilə 84,8 milyard dollarlıq ticarət profisiti var. "Mercedes-Benz"in gəlirinin 23%-i ABŞ-nin payına düşür. Müvafiq olaraq 44 milyard və 16,4 milyard dollar profisitlə İtaliya və Fransa daha az təsirə məruz qalacaq. Bununla belə, bəzi sektorlar ciddi təhlükə altındadır. İspaniya kimi hər iki ölkənin qida və şərab sektorları xüsusilə təsirlənəcək. 30 faizlik tarif Fransanın şərab və spirtli içkilər sektoru üçün "fəlakət" ola bilər. Almaniya kimi İtaliya da avtomobil sektorundakı vəziyyətdən narahatdır. Avstriya və İsveçin də ABŞ ilə ticarət profisiti müvafiq olaraq 13,1 milyard dollar və 9,8 milyard dollardır. İrlandiya 86,7 milyard dollarla Aİ üzvləri arasında ən böyük profisitə malikdir. Bu, əsasən "Pfizer", "Eli Lilly" və "Johnson & Johnson" kimi böyük Amerika dərman şirkətlərinin mövcudluğu ilə bağlıdır.

Bəzi ekspertlər Donald Trampın təşəbbüslərinə sakit yanaşır, kompromis əldə etmək üçün vaxtın olduğunu xatırladırlar. Digərləri isə əksinə, bunu Ağ Ev rəhbərinin öz tərəfdaşlarına danışıqlardan yorulduğunu və bütün hədələrini həyata keçirməyə hazır olduğunu çatdırmaq cəhdi kimi qiymətləndirir.

"Bloomberg" yazıb ki, dünya ölkələri razılaşma əldə etməyə çalışdıqca Trampın səbri tükənir: "Mesaj aydın idi: Tramp birtərəfli tariflər tətbiq etmək təhdidinə əməl edəcək. Aprel ayında bazarları tələf edəndən fərqli olaraq, daha bir tarif dalğası gəlir".

### TRAMP ABŞ-NİN DÜNYADAKI MÖVQEYİNİ SARSIDIRMI?

Ekspertlərin fikrincə, Trampın hamıya qarşı tarif aqressiyası ABŞ-nin etibarlı müttəfiq, azad dünyanın lideri kimi reputasiyasını aşağı salır. Bu, ticarət tərəfdaşları üçün deyil, ABŞ-nin özü üçün problemlər vəd edir. Kato İnstitutunun xarici ticarət üzrə eksperti Kolin Qrabou deyir: "Tramp tarif qadağasını yelləyir və ABŞ-nin dünyadakı mövqeyini sarsıdır. O, uzun müddətdir davam edən müttəfiqlərinin qəzəbinə tuş gəlir və Amerikanı son dərəcə etibarsız tərəfdaş kimi qələmə verir".

İddialara görə, Tramp sözünün üstündə durmur. O, dəfələrlə öz tarif sövdələşmələrini pozub və sabah başqa bir şeydən inciməyəcəyinə və tarifləri qaldıracağı ilə hədələməyəcəyinə zəmanət yoxdur. ABŞ-nin nüfuzu və iqtisadi itkiləri artdıqca, Trampın danışıqlarda mövqeyi hər gün zəifləyir.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR
Tel: (+994 55) 457-02-03 \ (+994 77) 447-47-17 E-mail: kaspiqazeti@kaspi.az

AZƏRBAYCANDA YEGANƏ FPL MÜTƏXƏSSİSİ, FIDE-NİN QADIN KOMİSSİYASININ ÜZVÜ ÜLKƏR UMUDOVANIN KARYERA YOLU "KASPİ"DƏ

# "UDUZANDA DA, UDANDA DA ATAM ALNIMDAN ÖPƏRDİ"



SÖHBƏTLƏŞDİ
AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

**Ülkər Umudova:** "Mən deyəndə ki, Bakı Dövlət Universitetinin Tətbiqi riyaziyyat və kibernetika fakültəsinə qəbul olmaq istəyirəm, heç kim inanmırdı. Hətta bir müəllimim məni hazırlaşdırmaqdan imtina etdi. Amma qəbul oldum. Vunderkind deyildim, sadəcə o vaxt anladım ki, beynim çox yaxşı işləyir. Şahmatdan əvvəl bu cür deyildi. Deməli, şahmat beynimi ciddi şəkildə inkişaf etdirmişdi".





Uduzmaqdan qorxmayıb. Çünki qələbə qazananda da, uduzanda da atasının dəstəyini hiss edib. Deyir ki, atam qalib gələndə "afərin", uduzanda isə "heç nə olmaz, gələn dəfə udarsan", - deyirdi. Bu yanaşma onu işinə daha çox bağlanmağa, çalışmağa sövq edib. Elə bunun nəticəsidir ki, bu gün adını Azərbaycan şahmat tarixinə yazdıra bilib. Müsahibimiz şahmat üzrə beynəlxalq dərəcəli hakim, Əməkdar məşqçi, keçmiş şahmatçı, Azərbaycanda yeganə FPL mütəxəssisi (şəffaf oyun təmin edilməsi üzrə) və FIDE-nin Qadın Komissiyasının üzvü Ülkər Umudovadır.

## "UŞAĞA "CƏHD ET, BACARARSAN" DEMƏK LAZIMDIR"

● **Ülkər xanım, müsahibələrinizdən birində uşaqlıqda şahmatı sevmədiyinizi demisiniz. Bəs, bu sevgi necə yarandı?**

● Bəli, şahmatla bağlı verilişlərə baxır, amma heç vaxt şahmatla məşğul ola biləcəyimi düşünmürdüm. Çünki bir dəfə oyunu öyrənmək qərarına gəldim. Veriliş bitənə qədər bütün gedişləri izləyir, əzbərləməyə çalışırdım. Amma heç nə başa düşmədim. Bunu bacara bilməyəcəyimə özümü inandırdım. Bir müddət sonra, təxminən 11-12 yaşımda, bacılarımı şahmat məktəbinə yazdırdıq və mən böyük olduğum üçün onları dərsə aparıb, gətirirdim. Bacılarımın dərslərinə nəzarət edərkən mən də şahmata maraq göstərməyə və öyrənməyə başladım. Onların dərslərini dinləyir, tapşırıqlarını edirdim. Hətta bacılarımın ilk dəfə yarışa qatılacaqları vaxt müəllim atama dedi ki, Ülkər də getsin. Atam təəccübləndi və dedi ki, axı, Ülkər şahmat oynamır. Müəllim isə, "o artıq şahmatı bilir", - dedi və mən də bacılarımla yarışlara qatıldım.

● **Şahmat ilk baxışda çox uşağa mümkünsüz görünür. Bu təcrübəni yaşayan və sonra bu sahədə seçilən biri kimi sizcə, bu mərhələni necə adlamaq olar?**

● Əgər bir az maraq və səbir varsa, mərhələ-mərhələ bu çətinliklər aradan qalxır. Şahmatda ilk addımlar çox həllediciddir. Əgər bu mərhələdə düzgün istiqamətləndirmə və motivasiya olarsa, uşaq davam etmək istəyir. Məncə, uşağa "bacarmazsan" yox, "cəhd et, bacararsan" demək lazımdır.

*Top səviyyəli oyunçular arasında yalnız 1-2 qadın şahmatçı var ki, kişi şahmatçılara yaxın səviyyədə çıxış edir.*

## "ŞAHMATDA DAYANDINSA, GERİLƏYİRSƏN"

● **Şahmata bacılarınızdan gec başlamısınız. Ümumiyyətlə, gec yaşda başlamanın mənfi tərəfi nədir?**

● Ən pis tərəfi seçim məcburiyyətində qalmaqdır. Bir neçə il sonra ali təhsil, yoxsa şahmat sualı arasında qalırsan. Bacımla paralel yarışırdıq, amma o, məndən dörd yaş kiçik idi. Mən 11-ci sinifdə oxuyanda, o hələ yeddinci sinifdə idi. Universitetə hazırlaşmaq üçün şahmatdan bir il uzaqlaşmalı oldum. Təkrar qayıdanda isə hiss etdim ki, performansım əvvəlki kimi deyil. Beynəlxalq reytinqim – "Elo" göstəricim aşağı düşdü. Şahmat beynin idmanıdır. İdman isə fasilə qəbul etmir. Daim məşq və davamlılıq tələb edir. Şahmatda da dayandınsa, geriləyirsən.

● **Hazırda şahmatçı uşaqlar yetişdirirsiniz. Şahmatın uşaqların inkişafında verdiyi faydalar nədən ibarətdir və neçə yaşdan başlaya bilərlər?**

● Əgər valideynin istəyi və uşağın da marağı varsa, şahmata dörd yaşından başlamaq mümkündür. Bu yaşdan etibarən uşaq artıq fiqurları tanıyır, gedişləri başa düşür və oyunu sona qədər oynamağı bacarır. Yəni 4-5 yaş uşağın beyni buna açıq olur. Təbii ki, nə qədər erkən başlanılsa, inkişaf da bir o qədər güclü olur. Məsələn, 10 yaşlı uşaq şahmata yeni başlayıb bir ay məşğul olduqdan sonra yarışa qatılırsa, onunla beş yaşından bəri beş ildir bu sahədə olan uşağın arasında təbii ki, fərq olur. Həm təcrübə, həm də nəticə baxımından üstünlük erkən başlayanlardadır. Amma hər uşaq buna hazır olmur. Bəzən altı yaşlı uşaq şahmatı qavramaqda çətinlik çəkə bilər. Hər uşaq şahmatçı ola bilməz və bu, tam normaldır. İstedad məsələsinə gəldikdə isə, istedad əsasən birinci və ikinci dərəcə səviyyəsinə gəldikdən sonra özünü göstərməyə başlayır. O mərhələyə qədər uşağın sağlam psixologiyası, normal qavrama bacarığı və ailənin dəstəyi ilə yaxşı nəticələr əldə etmək mümkündür. Amma daha yüksək nəticələr üçün artıq istedad və fərdi bacarıq ön plana çıxır. Eyni zamanda, bəzən uşaqlar uğursuz başlanğıc səbəbilə şahmatdan soyuyurlar. Bu səbəbdən valideynlər ilk mərhələdə çox həssas və diqqətli yanaşmalıdırlar. Məqsəd uşağın çempion olması yox, bu oyunu sevərək öyrənməsidir. Çünki şahmat əvvəlcə oyun kimi başlayır, amma dərinə getdikcə rəqabət və çətinliklər artır. Bu isə davamlı məşq və motivasiya tələb edir.

● **Şahmat insan beynini ən çox inkişaf etdirən sahələrdən sayılır. Hətta "şahmat oynayan insanların intuisiyası güclü olur", - deyirlər. Maraqlıdır, şahmat xarakterinizə və gündəlik həyatınıza necə təsir edib?**

● Bəli, şahmatdan sonrakı inkişafı hiss etmişəm. Orta məktəbdə əlaçı deyildim, 4-5-lə oxuyan orta səviyyəli şagird idim. Şahmata başladıqdan sonra yarışlar, intensiv məşqlər səbəbilə məktəbə ara verir, dərsləri buraxırdım. Bu da təhsilimə mənfi təsir edirdi. Qiymətlərim aşağı düşmüşdü. 11-ci sinfə başlayanda artıq universitetə hazırlaşmaq lazım idi. Amma çox geridə idim. Hamı illər əvvəl hazırlaşmağa başlamışdı, mənim isə cəmi bir il vaxtım var idi. Mən deyəndə ki, Bakı Dövlət Universitetinin Tətbiqi riyaziyyat və kibernetika fakültəsinə qəbul olmaq istəyirəm, heç kim inanmırdı. Hətta bir müəllimim məni hazırlaşdırmaqdan imtina etdi. Amma qəbul oldum. Mən vunderkind deyildim, sadəcə o vaxt anladım ki, beynim çox yaxşı işləyir. Bir materialı bir dəfə oxumaqla qavrayırdım. Şahmatdan əvvəl bu cür deyildi. Demək ki, şahmat beynimi ciddi şəkildə inkişaf etdirmişdi. İntuisiyaya gəlincə, mən onu aysberqə bənzədirəm. Altında dərin bilik və təcrübə dayanır. Şahmatda da bu belədir. Peşəkar olanda bəzi gedişləri intuitiv edirsən, amma bu, arxasında dayanan biliklərə əsaslanır. Bir neçə saniyə sonranı əvvəlcədən hiss edə bilirsən və bu da səni fərqləndirir.



## "BU, TƏKCƏ AZƏRBAYCANA AİD MƏSƏLƏ DEYİL"

● **Ülkər xanım, sizcə nə üçün şahmata qızların marağı istənilən səviyyədə deyil?**

● Dünya Şahmat Federasiyasında (FIDE) Qadınlar Komissiyasının üzvüyəm və bu məsələ ilə yaxından tanışam. Məşqçi kimi fəaliyyət göstərdiyim məktəbdə də şahmata yazılanların 70 faizi oğlanlar, 30 faizi qızlardır. Qadınların şahmata marağının kişilərə nisbətən az olması təkcə Azərbaycana aid məsələ deyil, bu, qlobal tendensiyadır. Təəssüf ki, dünya şahmatında qadın şahmatçılar kişilərlə müqayisədə hələ də daha zəif mövqedədir. Top səviyyəli oyunçular arasında yalnız 1-2 qadın şahmatçı var ki, kişi şahmatçılara yaxın səviyyədə çıxış edir. Bu da ümumi balansın qeyri-bərabər olduğunu göstərir. Amma onu da qeyd etməliyəm ki, Azərbaycan bu baxımdan bir çox ölkədən irəlidədir. Bizdə qadınlar arasında şahmata maraq daha çoxdur. Elə ölkələr var ki, qadın şahmatı demək olar ki, yoxdur. Bu səbəbdən də FIDE səviyyəsində qadın şahmatının inkişafı və təbliği üçün xüsusi layihələr həyata keçirilir.

● **Siz dünyanın ən gənc şahmat hakimlərindən biri və eyni zamanda beynəlxalq dərəcəli ilk azərbaycanlı qadın hakim kimi tarixə düşmüsünüz. Bu titula sahib olmağın məsuliyyəti nədir? Geriyə dönüb başladığınız nöqtəyə baxanda nə düşünürsünüz?**

● Bu həm qürurverici, həm də böyük məsuliyyətdir. Hakimliyə gəlişim isə bir seçim nəticəsində baş verdi. Əvvəlcə lokal yarışlarda könüllü kimi iştirak edirdim və bu prosesdən zövq almağa başladım. Tədricən rəsmi hakim kimi fəaliyyətə başladım. Beynəlxalq dərəcəli hakim olmaq isə o vaxtlar mənə əlçatmaz bir xəyal kimi gəlirdi. Amma məqsəd qoydum və addım-addım irəlilədim. Bu arada paralel şəkildə məşqçilik fəaliyyətinə də başladım. Yəni həm şahmatı təbliğ edir, həm də təşkilati və idarəçilik tərəfdə yer alırdım. Geriyə baxanda düşünürəm ki, bacılarımla birlikdə şahmata başlamağım, sonra da bu yola davam etməyim təsadüfi deyilmiş. Hər mərhələnin öz rolu olub və bu günə qədər formalaşmağımda böyük payı var.

● **Hakimlik sizin üçün bir məqsəd idi, amma məşqçilik ilkin planda yox idi. Bəs bu sahəyə necə başladınız?**

● Doğrudur, məşqçilik heç vaxt əsas planlarımda olmayıb. Amma hər şey təsadüfən başladı. Bir yarışda hakimlik edirdim. O vaxt bir nəfər yaxınlaşıb dedi ki, övladımızla məşğul olmağa müəllim axtarırıq. Uşaq Cənubi Afrika Respublikasının vətəndaşı idi və yalnız ingiliscə danışırdı. Azərbaycan dilini bilmirdi. Əksər məşqçilər isə ingilis dilində dərs keçə bilmirdilər. Sonda mənə təklif olundu ki, bəlkə sən cəhd edəsən. Mən də razılaşdım. Uşaqla ilk dərsdən sonra aramızda çox yaxşı əlaqə yarandı. Mənim 18 yaşım var idi, onun isə 13. Yaş fərqi çox deyildi və dərslərimiz qarşılıqlı maraqla keçirdi. Sonra ətrafımda olanlar eşitdi ki, mən dərs keçirəm və yavaş-yavaş hamı uşaqlarını mənim yanıma gətirməyə başladı. Beləcə, məşqçilik fəaliyyətim də həmin dövrdən başladı, planlaşdırmadığım, amma sevərək davam etdirdiyim bir yol oldu.



Fotolar: Tural Xəlil /Global Photostock

## "ATAM BİZƏ GƏLƏCƏK VERDİ"

● **Uğur qazanan idmançıların arxasında bir çox hallarda ailə dəstəyi dayanır. Sizdə bu necə olub?**

● Bəli, ailə dəstəyi çox önəmlidir. Atam incəsənət adamı olsa da, eyni zamanda uzun illər pedaqoji təcrübəyə malik bir müəllim idi. Onun bu təcrübəsi bizim şahmata yönəlməyimizdə böyük rol oynadı. Şahmat elə bir sahədir ki, burada psixoloji faktorlar çox önəmlidir. Bəzən aylarla hazırlaşırsan, amma yarışda yarım xala görə uduzursan. Bu isə insana ciddi mənəvi təsir edir, ruh düşkünlüyü və stress yaradır. Belə anlar bacılarımla mənim həyatımızda çox olub. Dəfələrlə şahmatla vidalaşmaq qərarına gəlmişik. Amma atam bizə motivasiya verirdi. Biz üç bacı da şahmatla məşğul olurduq. Onun bizə yanaşması təzyiq deyildi, daha çox yönləndirmə idi. O deyirdi ki, bu dəfə alınmadısa, gələn dəfə alınacaq. Əsas odur ki, səhvlərinizdən nəticə çıxarasınız. Uşaq yaşlarımızdan biz şahmat karyeramız üçün ciddi məşqlərə başlamışdıq. Gün ərzində 5-6 saat məşğul olurduq. Düzdür, o vaxtlar atama etiraz edirdik ki, uşaqlığımızı əlimizdən alırsan, biz digər uşaqlar kimi oynaya bilmirik. İndi isə deyirik ki, atam uşaqlığımızı məhdudlaşdırsa da, əvəzində bizə gələcək verdi. O, bizim uğurumuz üçün öz karyerasına 10 il fasilə verdi. Bizi şahmat dərslərimizə aparıb-gətirir, yarışlarda yanımızda olurdu. Bu fədakarlıq olmasaydı, yəqin ki, bu qədər irəliləyə bilməzdik. Hazırda ikinci bacım Günay Umudova da şahmatçıdır. Üçüncü bacım Nərgiz Umudova isə beynəlxalq qrossmeysterdir. Uzun illərdir Niderlandda yaşasa da, hələ də Azərbaycan Şahmat Federasiyasının oyunçusudur. Bu gün qazandığımız hər şeyin təməlində ailəmizin dəstəyi dayanır.

## "ŞAHMAT HƏM DƏ XARAKTER OYUNUDUR"

● **"Yumşaq qəlblisinizsə, şahmat oynaya bilməzsiniz" – bu fransız atalar sözü ilə razısınızmı?**

● Bəli, bu söz müəyyən mənada doğrudur. "Hücum etməsən, qalib gələ bilməzsən" kimi deyilənlər də bu qəbildəndir. Şahmat yalnız taktika və strategiya deyil, həm də xarakter oyunudur. Əgər bir oyunçunun məqsədi qalib gəlməkdirsə, o, bunu açıq şəkildə göstərir. Amma elə uşaqlar da olur ki, deyirlər, uduzsam da olar. Bu cür yanaşma ilə, təəssüf ki, ciddi şahmatçı olmaq mümkün deyil. Bəli, lazım gəldikdə şahmatda amansız olmaq da tələb olunur. Həssas uşaqlar adətən bu yolda davam edə bilmirlər. Şahmatda prinsipiallıq, soyuqqanlılıq və məqsədyönlülük çox önəmlidir.

● **Sizcə, bu sahədə uğurun əsas sirri nədir?**

● Heç bir uğur asanlıqla əldə olunmur. İnsan gördüyü işi sevməlidir. İş insanın sadəcə vəzifəsi yox, həyat tərzi olmalıdır.

● **Fəaliyyətiniz boyunca heç vaxt unutmadığınız bir an varmı? Sizə dərs verən bir hadisə...**

● Bəli. Yeniyetmə vaxtlarımda, təxminən 14-15 yaşım olanda Şəkidə beynəlxalq turnirdə iştirak edirdim. Medala çox yaxın idim, amma son anda uduzdum. Bu, məni çox sarsıtdı. Zalda ağlamağa utandım, çölə çıxdım ki, valideynlər görməsin. Binanın arxasında tək qalıb hönkür-hönkür ağladım. Atam məni o vəziyyətdə gördü və dedi ki, rahat-rahat ağla, içini boşalt, bu, normaldır. Amma sonra özünü toparla, evə gedirik. Sadəcə bu anı heç vaxt unutma. Gələcəkdə tənbəllik edəndə, məşq etmək istəməyəndə bu hissəni xatırla. Bu an mənim üçün bir növ travma idi, amma motivasiya rolunu oynadı. Bu hadisə məni formalaşdıran əsas dönüm nöqtələrindən biri oldu.

● **Uduzmaqdan qorxmusunuz?**

● Açığı, uduzmaqdan qorxmamışam. Çünki atam bizə heç vaxt nəticə üzərindən yanaşmırdı. Uduzanda da, udanda da alnımızdan öpərdi. Heç vaxt deməzdi ki, Ülkər udub, yaxud uduzub. Sadəcə qalib gələndə "afərin", uduzanda isə "heç nə olmaz, gələn dəfə udarsan", - deyirdi. Bu yanaşma bizdə sağlam psixologiyanın formalaşmasına kömək etdi.



# DÖVLƏTİN RƏQƏMSAL GƏLƏCƏYİNƏ TÖHFƏ

"Bug bounty" proqramı çərçivəsində həyata keçirilən simulyasiya edilmiş kiberhücumlar vasitəsilə dövlət informasiya ehtiyatlarında mövcud ola biləcək zəifliklər aşkarlanıb və bu boşluqların aradan qaldırılması üçün operativ tədbirlər görülüb.

Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin yerli kibertəhlükəsizlik startapı olan "Qarabug" platforması vasitəsi ilə GOV.AZ zonasına aid informasiya sistemlərində ilk dəfə həyata keçirilən "Bug Bounty" proqramı yekunlaşıb. Bu ilin aprel-iyul aylarını əhatə edən layihə çərçivəsində könüllü olaraq təhlükəsizlik üzrə zəiflikləri aşkara çıxaran mütəxəssislər, sadəcə texniki bacarıqlarını deyil, həm də vətəndaş məsuliyyətini və dövlətin rəqəmsal gələcəyinə olan töhfələrini nümayiş etdiriblər.

Ümumilikdə qeydiyyatını təsdiq etmiş 600 nəfərdən 39 nəfərin aktiv iştirak etdiyi proqram çərçivəsində təhlükəsizlik zəifliklərinin aşkarlanması və peşəkar şəkildə sənədləşdirilməsinə görə ən yüksək nəticə göstərən iştirakçılar mükafatlandırılıb.

### İCTİMAİ VƏ PEŞƏKAR POTENSİALIN BİRLƏŞDİRİLMƏSİ NÜMUNƏSİ

Tədbirdə çıxış edən Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin Baş İdarə rəisi Azər Əhədov bildirib ki, Azərbaycanda informasiya təhlükəsizliyi sahəsində güclü, savadlı və məsuliyyətli mütəxəssislər ordusu formalaşıb. "Bugünkü görüş ölkəmizin rəqəmsal təhlükəsizliyinin gücləndirilməsi istiqamətində atılmış önəmli addımlardan biri - "Bug bounty" – yəni boşluqların aşkarlanması üzrə yarışmanın nəticələrinin ictimaiyyətə təqdim olunmasına həsr olunub. Bu təşəbbüs, dövlət informasiya ehtiyatlarının təhlükəsizliyinin təmin olunmasında ictimai və peşəkar potensialın birləşdirilməsinin bariz nümunəsidir. "Bug bounty" proqramı çərçivəsində könüllü olaraq təhlükəsizlik üzrə zəiflikləri aşkara çıxaran mütəxəssislər, sadəcə texniki bacarıqlarını deyil, həm də vətəndaş məsuliyyətini və dövlətin rəqəmsal gələcəyinə olan töhfələrini nümayiş etdirdilər", - o bildirib.

### İNFORMASİYA SİSTEMLƏRİMİZİN ETİBARLILIĞI ARTIB

Azər Əhədov qeyd edib ki, bu, açıq və şəffaf yanaşmanın, həmçinin ictimai iştirakçılığın uğurlu nümunəsidir. "Bug bounty" proqramı çərçivəsində həyata keçirilən simulyasiya edilmiş kiberhücumlar vasitəsilə dövlət informasiya ehtiyatlarında mövcud ola biləcək zəifliklər aşkarlanıb və bu boşluqların aradan qaldırılması üçün operativ tədbirlər görülüb. "Bu, bizə real təhdidlərə qarşı proaktiv müdafiə imkanları qazandırıb və informasiya sistemlərimizin etibarlılığını artırıb", - deyə o qeyd edib.

### MÜHÜM TƏCRÜBƏLƏR ƏLDƏ OLUNUB

Baş idarə rəisi vurğulayıb ki, qurumun Təhlükəsizlik Əməliyyatlar Mərkəzinin monitorinq və reaksiya qabiliyyətinin artırılması baxımından bu proqram əhəmiyyətli rol oynayıb: "Aşkarlanan zəifliklər, insidentlərin təhlili və cavab mexanizmlərinin təkmilləşdirilməsi istiqamətində mühüm təcrübələr əldə olunub. Bu təşəbbüs bizə sahə üzrə istedadlı şəxsləri üzə çıxarmağa da imkan verib. Yarışma çərçivəsində öz bilik və bacarıqları ilə fərqlənən mütəxəssislər, gələcəkdə dövlət strukturları ilə birgə layihələrdə iştirak edə biləcək potensial tərəfdaşlar kimi diqqət mərkəzinə gəlib. Onlarla əməkdaşlıq imkanlarını artıq aktiv şəkildə müzakirə edirik. Ən əsası isə bu yarışma vasitəsilə ölkəmizdə "Bug bounty" mədəniyyətinin formalaşdırılmasına və təşviqinə real zəmin yaranıb. Şəffaf, məsuliyyətli və konstruktiv əməkdaşlığa əsaslanan bu mədəniyyət, həm dövlət qurumlarının, həm də texnoloji ictimaiyyətin faydasına yönəlib və gələcəkdə kibertəhlükəsizliyimizin əsas sütunlarından birinə çevriləcək".





## GƏNC İSTEDADLAR ÜZƏ ÇIXARILIB

Azər Əhədov qeyd edib ki, əldə olunan nəticələrə əsasən, ölkəmizdə informasiya təhlükəsizliyi sahəsində güclü, savadlı və məsuliyyətli mütəxəssislər ordusu formalaşıb: "Biz bu proqram vasitəsilə təkcə sistemlərimizdəki boşluqları müəyyən etmədik, həm də gənc istedadları üzə çıxardıq, onlara real sınaqda iştirak imkanı verdik. Bu münasibətlə yarışmada fəal iştirak edən bütün mütəxəssislərə, qaliblərə və dəstəyini əsirgəməyən tərəfdaş qurumlara dərin təşəkkürümü bildirirəm. Əminik ki, belə proqramlar davamlı olacaq və dövlət sistemlərinin təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynamağa davam edəcək".



## SOCAR "ESYASOFT HOLDİNG" İLƏ MÜQAVİLƏ İMZALAYIB

Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) "Azəriqaz" İstehsalat Birliyi və Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) "Esyasoft Holding" şirkəti arasında ağıllı qaz şəbəkəsinin layihələndirilməsi, qurulması və istifadəyə verilməsi haqqında müqavilə imzalanıb. Bu barədə "Report" SOCAR-a istinadən xəbər yayıb. Məlumata görə, layihənin əsas məqsədi qabaqcıl ağıllı qaz idarəetmə sistemi texnologiyalarının tətbiqi sayəsində Azərbaycan ərazisində qazın paylanması üzrə əməliyyat səmərəliliyini artırmaq, xərcləri optimallaşdırmaq, mövcud qaz itkilərini azaltmaq, habelə "Azəriqaz"ın göstərdiyi xidmətlər üzrə müştəri və vətəndaş məmnunluğunu yüksəltməkdir. Layihə 2,5 milyon "ağıllı" sayğacın quraşdırılması və sistemə dəstək mərhələləri nəzərə alınmaqla təxminən 14 illik dövrü əhatə edəcək. Bu dövr ərzində 480 milyon ABŞ dolları sərmayənin yatırılması nəzərdə tutulur. Bu sərmayə yaxın gələcəkdə şəbəkənin rəqəmsallaşdırılmasının, ağıllı təzyiq və temperatur sensorlarının quraşdırılmasının, "Rəqəmsal həllər laboratoriyası"nın yaradılmasının, əməkdaşların qabaqcıl texnologiyalar üzrə təliminin və beynəlxalq təcrübə mübadiləsinin təşkilinin, süni intellektin tətbiqi, məlumatların Hökumət buludunda yerləşdirilməsi ilə informasiya təhlükəsizliyinin təmin olunmasının, eləcə də müasir texnologiyalarla təchiz edilmiş idarəetmə mərkəzinin qurulmasının mümkünlüyünə imkan verəcək. İstehlakçılar daha dəqiq hesablama, real vaxt rejimində istifadə monitorinqi, problemlərin sürətli həlli, uzaqdan xidmət və rəqəmsal platformalar vasitəsilə istehlak məlumatlarına asan çıxış kimi üstünlüklər əldə edəcəklər. Ötən il Bakıda keçirilmiş COP29 çərçivəsində SOCAR-la "Esyasoft Holding" arasında imzalanmış əməkdaşlıq sazişinin davamı olan bu müqaviləni SOCAR prezidenti Rövşən Nəcəf, "Azəriqaz"ın baş direktoru Azər Məmmədov və "Esyasoft Holding"in baş icraçı direktoru Bipin Çandra imzalayıblar.

Kaspi ÜÇ ƏSRİN QƏZETİ

Təsisçi
**Global Media Group**

Baş redaktor
**İlham Quliyev**

Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Rüstəm Qaraxanlı, Xanım Aydın, Aqşin Kərimov, Sevinc Abbasova, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**

Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli**
Yayım və satış meneceri
**Vadim Manafov**

Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**

Qəzet "Azərbaycan" nəşriyyatında çap olunub.
Sifariş: 1482
Tiraj: 2350
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

## BU İL BAZARLARDA TƏRƏVƏZ MƏHSULLARININ QİYMƏTİ MÜNASİBDİR

# ALICI SEVİNİR, FERMER ŞİKAYƏTLƏNİR

Keçən illərdən fərqli olaraq, bazarlarda pomidor, xiyar və digər ixraca istiqamətlənən tərəvəzlərin qiymətində ucuzluq müşahidə edilir. Ekspertlər bunu həm görülən tədbirlər, həm məhsul bolluğu, həm də siyasi amillərlə əlaqələndirirlər.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Bu il bazarda tərəvəzlərin qiyməti əvvəlki illərlə müqayisədə o qədər də baha deyil. Xüsusilə də pomidor və xiyarın qiyməti münasibdir. Bu, nə ilə əlaqədardır? Qiymətlər nə vaxta qədər bu şəkildə davam edəcək?

### "BAZARDA TƏRƏVƏZ BOLDUR"

Lənkəran Dövlət Universitetinin Aqrar və mühəndislik fakültəsinin müəllimi Nahid Əzizli bu il məhsulların qiymətinin uyğun olmasının səbəblərini açıqladı: "Səbəblərdən biri yüksək məhsuldarlıqdır. 2025-ci ilin yaz-yay mövsümündə ölkənin bir çox bölgəsində (xüsusilə də Lənkəran, Masallı, Saatlı və Salyan kimi rayonlarda) hava şəraitinin əlverişli keçməsi nəticəsində bol məhsul yığılıb. Su təminatı və temperatur normaya uyğun olub, bu da istixanalarda və açıq sahələrdə məhsulun artmasına rəvac verib. Bununla yanaşı, əkin sahələrinin genişlənməsi, son illərdə dövlətin aqrar sektora subsidiyalar verməsi, ucuz gübrə və toxum dəstəyi əkin sahələrinin genişlənməsinə səbəb olub. Xüsusilə pomidor və xiyar kimi tez yetişən tərəvəzlərə üstünlük verilməsi istehsal həcmini artırıb".

Ekspert qeyd edir ki, yeni texnologiyaların tətbiqi, xüsusi ilə hidroponika və damcı-suvarma kimi müasir texnologiyaların yayılması məhsul itkilərinin azalmasına, daha keyfiyyətli və bol məhsul alınmasına şərait yaradıb. Rəqabətli bazar və mövsümi təsir də məhsulun bazara kütləvi daxil olmasına (tələbdən daha çox təklifin olması) şərait yaradıb: "Nəticədə qiymətlərin nisbətən aşağı düşməsinin şahidi oluruq. Yüksək keyfiyyətli məhsullar adətən bir qədər yüksək qiymətə satılır. Lakin bolluq zamanı yüksək keyfiyyətli məhsulun da qiymətində ciddi artım müşahidə olunmur, çünki təklif çoxdur. Keyfiyyətsiz məhsullar isə ya çox ucuz qiymətə satılır, ya da ümumiyyətlə satılmır. Bazar tələbi keyfiyyətli və orta qiymətli məhsullara yönəlib".

### "KİÇİK FERMERLƏR CİDDİ ÇƏTİNLİK YAŞAYIRLAR"

N.Əzizlinin sözlərinə görə, fermerlərin əksəriyyəti aşağı qiymətlərdən narazıdır: "Çünki toxum, gübrə, yanacaq, suvarma xərcləri qiymətləri artıb. Aşağı satış qiyməti gəlirliliyi azaldır. Zərər etməmək üçün məhsulu ya erkən satmalı olurlar, ya da saxlama imkanı olmayanlar məhsulun bir hissəsini itirirlər. Böyük təsərrüfatlar bu vəziyyətdən az təsirlənir, lakin kiçik fermerlər ciddi çətinlik yaşayırlar".

Ekspertin fikrincə, mövsümün sonuna doğru qiymətlərdə artım ola bilər: "Qiymətlərin sabit qalması üçün bir sıra addımlar atılmalıdır. Planlı əkin siyasəti həyata keçirilməlidir. Həddindən artıq bir məhsulun eyni vaxtda yetişdirilməsi qiymətlərin düşməsinə səbəb olur. Dövlət və yerli idarələr əkin planlaşdırılmasına yönəlik maarifləndirmə və tənzimləmə aparmalıdır. Məhsulu uzun müddət saxlamaq üçün soyuq anbarların sayı artırılmalıdır. Xarici bazarlara ixrac sabit şəkildə tənzimlənməlidir ki, daxili bazarda qıtlıq yaranmasın. Fermerlərin birləşməsi və məhsullarını birlikdə satmaları bazar qiymətlərinə daha çox nəzarət etməyə imkan verər. Fermerlər üçün zərərin minimuma endirilməsi məqsədilə aqrar sığortaların və subsidiya mexanizmlərinin genişləndirilməsi vacibdir. Qiymətlərin sabit saxlanması üçün isə planlı istehsal, saxlama şəraiti və ixracın tənzimlənməsi kimi amillər önəmlidir. Əgər iqlim şəraiti stabil qalarsa və ixrac kəskin artmazsa, qiymətlərin sabit qalması mümkündür. Lakin avqust ayının sonuna doğru məhsul həcmi azaldıqca qiymətlərdə müəyyən artım ola bilər".



Nahid Əzizli



Fotolar: Rüfət Mikayılov/Global Photostock




## RUSİYANIN İSTƏMƏDİYİ POMİDORLAR

İqtisadçı Rauf Qarayev isə düşünür ki, siyasi məsələlər də qiymətlərə öz təsirini göstərir: "Bazarda tərəvəzlərin qiymətinin ucuz olması mövsümlə əlaqədardır. Yay aylarında qiymətlərin enməsi müşahidə olunur. Digər səbəb suyun çatdırılmasıdır. Su ehtiyatımızın kifayət qədər olması ucuzlaşmaya gətirib çıxarır. Digər hal isə Rusiya ilə bağlıdır. Rusiya ölkəmizdən gələn məhsulları geri qaytarır. Məsələn, pomidorda bunu müşahidə etdik. "Rosselxoznadzor" Dağıstan ərazisində Azərbaycandan 152 ton məhsulun idxalına qadağa qoyub. Başqa bir gömrük postunda 400 ton məhsul Azərbaycana qaytarılıb. Bu da bazarda məhsulun bol olmasına səbəb olur. Məhsul boldursa, qiymətlər aşağı düşür. Əgər məhsullar kütləvi şəkildə bazarlara yönəldilirsə, onun keyfiyyətinə də baxmaq lazımdır. Qiymətdən asılı olaraq, keyfiyyət fərqli ola bilər".

İqtisadçının sözlərinə görə, kəskin iqlim dəyişiklikləri baş verərsə, o zaman kəskin qiymət artımları müşahidə edilə bilər: "Çünki istehsal çətinləşir. Daxili bazar qorunmalıdır ki, kəskin qiymət artımı baş verməsin. Hava mövsümün sonuna qədər belə gedərsə, Rusiyanın qadağaları davam edərsə, bazarda məhsul bol olarsa, qiymətlər olduğu kimi qalacaq. Havalar isti keçsə və su bol olsa, qiymət stabilliyi müşahidə ediləcək".



Rauf Qarayev



# DİM-İN “QAPALI ZONA”SINDAN REPORTAJ

“Fayllar çeşidlənəndən sonra yoxlama zamanı artıq insan iştirak etmir. Elektron fayllar yaradılır, müvafiq skanerlə hər bir cavab kartının şəkli çəkilir. Hər bir abituriyentin nəticəsi elan olunanda bu qrafik təsvir də ona təqdim olunacaq”.



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Media işçilərinin ilk dəfə olaraq Dövlət İmtahan Mərkəzində (DİM) abituriyentlərin qəbul imtahanlarının cavablarının emal olunduğu “qapalı zonaya” dəvəti sözün həqiqi mənasında sürpriz oldu. Dövlət İmtahan Mərkəzinin İdarə Heyətinin sədri Məleykə Abbaszadənin təşəbbüsü milyonlarla gəncin taleyinin asılı olduğu otaqlardakı iş prosesi ilə tanışlığa imkan yaratdı.

### “NƏ YAZIBLARSA ODUR...”

“Görən nə vaxt açıqlanacaq?”, “Ballar aşağı düşəcəkmi?”, “Topladığımız bal seçmək istədiyimiz ixtisasa uyğun gələcəkmi?” və s. suallar məngənəsində sıxılan abituriyentlərin gələcək taleləri məhz bu zonada həll olunur. Bu otaqlarda qəbul imtahanlarının cavablarının emalının ilkin mərhələsi həyata keçirilir. “Deməli, gənclərin həyatında məhz bu otaqların rolu var...”, - fikirlərimə DİM-in Mətbuatla iş sektorunun müdiri Xanlar Xanlarzadə “nə yazıblarsa odur...”- deyə cavab verdi: “Məqsəd nədir? Şəffaf, sürətli yoxlama prosesi həyata keçirilsin. İnsan amili qarışmasın. Qapalı tipli tapşırıqları biz 2-3 günə yoxlayıb qurtarırıq. Yazılı cavab tələb edən tapşırıqlar artıq marker-müəllimlər tərəfindən yoxlanıldığı üçün iki həftə vaxtımızı alır. Təsəvvür edin, marker-müəllimlər on min və ya yüz minlərlə tapşırığı yoxlayırlar. Ona görə bu proses vaxt aparır”.

### EMAL OTAĞINDA

DİM əməkdaşlarının çalışdığı iki otağın birində cavab vərəqlərinin və kartlarının çeşidlənməsi, sayılması, digər otaqda elektron üzünün köçürülməsi, qrafik təsvirlərinin alınması həyata keçirilir.

Hazırda otaqlarda 13 iyulda keçirilən I-IV qrup imtahanlarının cavabları çeşidlənir. İmtahanda 34 mindən çox məzun iştirak edib. “Burada imtahana aid faylların yaradılması, oxuma prosesi həyata keçirilir. Hazırda 34 min material açılıb. Bu proses bitəndən sonra kağızlar arxiv otağına yığılır. Bu fayllar heç kimə verilmir”, - deyə DİM sədri Məleykə Abbaszadə proses haqda məlumat verdi: “Fayllar çeşidlənəndən sonra yoxlama zamanı artıq insan iştirak etmir. Elektron fayllar yaradılır və faktiki olaraq müvafiq skanerlə yazısı olan hər bir cavab kartının şəkli çəkilir. Hər bir abituriyentin nəticəsi elan olunanda bu qrafik təsvir də ona təqdim olunacaq. Skanerlər qapalı tipli tapşırıqları avtomatik yoxlayır. Marker-müəllim yoxlama prosesini aparanda şəxsin kimliyini bilməmək üçün kompüterin qabağında ad-soyadı kəsilmiş formada görür və avtomatik onu qiymətləndirir”.

### ABİTURİYENTİN BİR SUALINI ƏN AZI İKİ MARKER-MÜƏLLİM YOXLAYIR

M.Abbaszadə qeyd etdi ki, abituriyentin bir sualını ən azı iki marker-müəllim yoxlayır, uyğun gəlməyəndə 3-cü markerə göndərilir: “Bu proses tam avtomatlaşdırılıb. Markerlər həmin nəticələri sistemdə yoxlayırlar. Onlar bu prosesə öz kompüterləri ilə evlərindən qoşulurlar. Hər bir fənn üzrə kifayət qədər iş var. Təxminən iki həftə ərzində iş bitəcək. Bizim yoxlama prosesimiz tam alqoritm əsasında baş verir. İnsanın bu prosesə təsiri yalnız həmin qaydalara riayət edib meyarlara uyğun qiymətləndirməni aparmasıdır. Bu, bizim xüsusi platformamızdır və kütləvi olaraq istifadə olunur. Belə bir sistemin olması bizim mütəxəssislərimizin əməyinin nəticəsidir”.











**Fotolar:** Rüfət Mikayılov/Global Photostock

## MARKER-MÜƏLLİM ÇATIŞMAZLIĞI

DİM sədrinin sözlərinə görə, marker-müəllimlərin işini də sistem özü yoxlayır: “Süni intellektə aid alqoritmlər işləyir. Hansısa marker tez-tez səhv edirsə və onun nəticəsi o biri markerin nəticəsi ilə üst-üstə düşmürsə, ona şablon cavablar göndərilir ki, yoxlasın. İşinə məsuliyyətli yanaşmayan markerləri prosesdən uzaqlaşdırırıq. Nə qədər çox müəllim bizlə əməkdaşlıq etsə, proses daha tez başa çatacaq”. DİM sədri müəyyən fənlərdən marker-müəllim çatışmazlığının olduğunu bildirdi: “İnformatika üzrə markerlərin sayı çox azdır”.

### KEÇİD BALLARI AŞAĞI DÜŞƏCƏKMİ?

DİM sədri imtahan verən abituriyentlərin ən çox marağında olan “Keçid ballarında hər hansı dəyişiklik gözlənilirmi?” sualını da cavablandırdı: “Bu gün müsabiqəyə buraxılan şəxslərin sayı yalnız birinci cəhdin nəticəsinə görə məlumdur. İkinci cəhdin nəticəsinə görə bu şəxslərin sayı arta da bilər. Ona görə prosesə aid fikir söyləmək çətindir. Biz bunu müəyyən ixtisaslarda gözləyirik. Amma onu deyə bilərəm ki, keçid balları aşağı düşməyəcək”.

### PLAN YERLƏRİ NECƏ, ARTACAQMI?

“Balların kəskin şəkildə artmasını gözləmirəm”, - deyə sədr cavab verdi: “Plan yerləri artır - bizdə abituriyentlərin sayı da çoxdur. Keçən illə müqayisədə biz 150-200 və ya 250 baldan yuxarı nəticə göstərən şəxslərin sayına baxmalıyıq. Keçən illə eyni səviyyədə olsa, onda ola bilsin ki, heç ballar da qalxmasın. Həmişə müsabiqə vəziyyəti yüksək olan müəyyən ixtisaslarda keçən ildəkindən daha yüksək rəqəmlər görsək, orada qalxmanı gözləyirik”.

### ELEKTRON SİSTEMƏ KEÇİD

DİM sədri imtahan prosesində süni intellektin nə dərəcədə rol oynadığından danışaraq “prosesdə yalnız süni intellektin roludur demək olmaz. Kifayət qədər mexaniki işlər var - onları robot görmür, işçi qrupu həyata keçirir”, - deyə bildirdi: “Düşünürəm ki, imtahanların bir qismi elektron imtahanlara keçəndən sonra prosesdə süni intellektin rolu kifayət qədər artacaq”. İmtahan prosesində elektron sistemə keçid isə qapıdadır. DİM sədri imtahanların mərhələli şəkildə elektron formata keçəcəyini bildirdi: “Buraxılış və qəbul imtahanlarını elektron formata keçirmək üçün biz gərək Elm və Təhsil Nazirliyi ilə birgə işləyək”.

İctimai etimad məsələsinə gəlincə, DİM sədri bildirdi ki, düzgün addımlar atılsa, etimad pozulmayacaq: “Əvvəllər insanların kompüterlərə inamı yox idi. İndi insanlar bu sahədə maarifləndirilir. Gənclər isə bu sahəni çox yaxşı bilir”.

## REYTİNQƏ TƏSİR EDƏN ƏSAS AMİLLƏRDƏN BİRİ GEOSİYASİ SABİTLİKDİR

# AZƏRBAYCANI DAHA CƏLBEDİCİ EDƏN REYTİNQ

Azərbaycanın "Moody's" tərəfindən reytinqinin "Ba1"dən "Baa3"ə yüksəldilməsi ciddi və müsbət göstəricidir. Bu, həm dövlət, həm də özəl sektor üçün gözəl imkandır.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

## DÖVLƏT VƏ ÖZƏL SEKTOR ÜÇÜN GÖZƏL İMKAN

"Moody's" beynəlxalq reytinq agentliyi Azərbaycanın suveren kredit reytinqini "Ba1" səviyyəsindən "Baa3" səviyyəsinə (investisiya səviyyəsi) yüksəldərək reytinq üzrə proqnozu "müsbət" saxlayıb.

Bu yüksəlmə ölkəmizə, iqtisadiyyatımıza nə kimi töhfə verəcək?

### "AZƏRBAYCANI DA PERSPEKTİV ÖLKƏ KİMİ NƏZƏRDƏN KEÇİRƏCƏKLƏR"

İqtisadçı Elçin Əkbərovun sözlərinə görə, ölkəmiz ilk dəfə 2006-cı ildə "Moody's" reytinqinə "Ba1" reytinqi ilə daxil edilib. Reytinqimiz qlobal və lokal iqtisadiyyatda dalğalanmalarla "Baa3" ilə "Ba2" arasında hərəkət edib. 2025-ci il 4 iyul tarixindən isə Azərbaycanın reytinqi yenidən "Baa3" səviyyəsinə yüksəlib: "Daha əvvəl Azərbaycan spekulyativ artan risk kateqoriyasında idi. Bu dəyişimlə xarici investorlar və beynəlxalq maliyyə institutları ölkəmizlə bağlı daha az risk görəcək, "Moody's" reytinqini əsas götürən qurumlar investisiyalarını planlaşdırarkən Azərbaycanı da perspektiv ölkə kimi nəzərdən keçirəcəklər. Ümumi reputasiya və beynəlxalq mövqeyimiz möhkəmlənir, nəticə olaraq işgüzar aktivliyin və yeni layihələrin artmasına səbəb ola bilər".

E.Əkbərovun fikrincə, kredit reytinqi borc öhdəliklərini vaxtında və tam yerinə yetirmə qabiliyyətini qiymətləndirir: "Azərbaycanın güclü fiskal mövqeyi, aşağı borc yükü, qeyri-neft-qaz sektorunun inkişafı və neft gəlirlərindən asılılığın azalması reytinq yüksəlişinin əsas səbəblərindən biri kimi göstərilib".

İqtisadçı kredit reytinqinin yüksəlməsinin müsbət tərəflərinə də toxundu: "Kredit reytinqinin yüksəlməsi ilə Azərbaycan beynəlxalq bazarlardan daha ucuz kreditlər cəlb edilə bilər. Xarici investorların Azərbaycana olan inamı güclənir. Artan investisiya və azalan borclanma xərcləri iqtisadi artımı stimullaşdırır. Yeni layihələrin icrasına və infrastrukturun inkişafına şərait yaradır, beynəlxalq maliyyə qurumları və tərəfdaşlarla əməkdaşlıq imkanları genişlənir. Ölkəyə kapital axınının artması milli valyutanın sabitliyinə müsbət təsir etdiyi kimi, qarşılıqlı olaraq milli valyutanın sabitliyi də ölkəyə kapital axınının artması ilə nəticələnir. Yüksək reytinqlə ölkəyə qarşı iqtisadi və siyasi islahatlar, şəffaflıq və makroiqtisadi sabitliyin qorunması ilə bağlı gözləntilər artır. Bu gözləntilərin qarşılanmaması gələcəkdə reytinqin yenidən aşağı salınması ilə nəticələnə bilər".



Elçin Əkbərov

E.Əkbərov bildirdi ki, "Moody's"in proqnozunun müsbət olması, gələcəkdə daha bir yüksəliş potensialının olduğunu göstərir: "Qeyri-neft sektorunun davamlı inkişafı ilə iqtisadiyyatın neftdən asılılığının daha da azaldılması, bank-maliyyə sektoru, vergi sistemi, dövlət satınalmaları və ümumilikdə biznes mühitində şəffaflığın və səmərəliliyin artırılmasına yönəlmiş islahatların davam etdirilməsi həlledici olacaq. İşğaldan azad edilmiş ərazilərin bərpası və iqtisadi potensialının tam şəkildə istifadəyə verilməsi ilə ümumi iqtisadiyyata töhfəsi, dövlət borcunun aşağı səviyyədə saxlanılması və strateji valyuta ehtiyatlarının artırılması da mühüm məqamlardır. Geosiyasi hadisələr, böyük borclanma, iqtisadiyyatın şaxələndirilməməsi, neft-qazdan asılılıq kimi məqamlar isə reytinqin yüksəlməsinə mane ola bilər".

İqtisadçı qeyd etdi ki, Azərbaycanın "Moody's" tərəfindən reytinqinin "Ba1"dən "Baa3"ə yüksəldilməsi ciddi və müsbət göstərici olmaqla, həm dövlət, həm də özəl sektor üçün gözəl imkandır. Bu, daha çox sərmayə, daha ucuz maliyyə və daha güclü iqtisadi nüfuz deməkdir.

### "AZƏRBAYCAN DAHA CAZİBƏDAR SAYILIR"

İqtisadçı-ekspert Aslan Əzimzadə də düşünür ki, "Moody's" beynəlxalq reytinq agentliyinin Azərbaycanın suveren kredit reytinqinin səviyyəsini artırması ölkəmizin investisiya cəlbediciliyi çərçivəsində statusunun yüksəldilməsi deməkdir: "İnvestisiya axınlarının artması, borclanma şərtlərinin yaxşılaşması, milli valyuta və iqtisadi siyasətə etimadın artması və qlobal mövqeyimizin möhkəmlənməsi məhz kredit reytinqinin artması nəticəsində ön plana çıxan müsbət tərəflərdir. Kredit reytinqinin artması çərçivəsində beynəlxalq maliyyə bazarlarında Azərbaycan daha cazibədar sayılır. Digər tərəfdən, borclanma şəraitinin yaxşılaşması özünü həm dövlət, həm özəl sektor üçün maliyyə bazarlarından cəlb olunan vəsaitlərin faizlərinin azalmasında, iqtisadi inkişafın maliyyələşmə xərclərinin aşağı düşməsində göstərir".

A.Əzimzadənin sözlərinə görə, kredit reytinqinə təsir edən əsas amillərdən biri geosiyasi sabitlikdir: "Bu gün Azərbaycanın balanslı siyasəti geosiyasi risk faktorunu da azaldır. Bu da öz növbəsində kredit reytinqinin artmasına səbəb olur. Çünki investorlar üçün ən vacib göstəricilərdən biri də məhz geosiyasi risklərdir. Xarici sektordan, xüsusən də neft və qaz gəlirlərindən asılılıq faktoru kredit reytinqinə təsir göstərən amillərdəndir. Çünki son illərdə ölkəmizdə qeyri-neft sektorunun inkişaf etməsi sırf xarici sektordan asılılığı da azaldıb ki, bu da kredit reytinqinin artmasına öz töhfəsini verib".




## "MÜƏYYƏN MƏNFİ CƏHƏTLƏRİ DƏ VAR"

Ekspertin fikrincə, kredit reytinqinin müəyyən mənfi cəhətləri də var: "Çünki ölkələr kredit reytinqinin qorunması üçün bəzi hallarda sərt fiskal siyasətə keçə bilirlər. Bu da öz növbəsində müəyyən mənada sahibkarlığa mənfi təsir göstərir, sosial xərclərə müəyyən qədər təsir edir. Ölkəmizdə hazırda sosial və maliyyə sahəsində mütərəqqi və davamlı islahatların nəticəsində kredit reytinqinin də uzunmüddətli perspektivdə yenidən artırılması gözlənilə bilər. Gələcəkdə artım olması üçün qeyri-neft sektorunda dayanıqlı şəkildə iqtisadi artım təmin olunmalı, rəqəmsal islahatlar sürətlənməli, insan kapitalının inkişafına daha çox sərmayə yatırılmalıdır".



Aslan Əzimzadə

# YERLİ İSTEHSALÇILARIN PAYI ARTIR

Azərbaycanda düyü istehlakı ildə 70 min tona yaxındır. Bunun 75-80 faizi idxal hesabına qarşılanır. Hazırda yerli düyü istehsalçılarının bazar payı 15-20 faiz civarındadır.

**YERLİ İSTEHSALÇILAR BAZARDA 15-20 FAİZ PAYA MALİKDİRLƏR**




SEVİNC ABBASOVA

Azərbaycana düyü idxalında əhəmiyyətli azalma müşahidə olunur. Dövlət Gömrük Komitəsinin məlumatına görə, 2025-ci ilin yanvar-may aylarında ölkəyə 27 min 210 ton düyü gətirilib ki, bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə 16,5% azdır. İdxal dəyəri də 23,8% azalaraq 25,8 milyon dollar səviyyəsində qeydə alınıb. Bu dövrdə Azərbaycana idxal olunan düyünün bir kiloqramının orta qiyməti 1,61 manat olub. Xatırladaq ki, 2024-cü ilin eyni dövründə bu rəqəm 1,77 manat idi. Bu da illik müqayisədə 16 qəpik və ya 9% azalma deməkdir. Maraqlıdır, Azərbaycana düyü idxalının azalmasına səbəb nədir? Bu tendensiya davam edəcəkmi? İdxalın azalması bazara necə təsir göstərəcək?

**İSTEHLAKÇI DAVRANIŞLARI DƏYİŞİR**

İqtisad elmləri doktoru, professor Əli Əlirzayev bildirir ki, düyü üzrə əsas ixracatçı olan ölkələrdə iqlim dəyişikliyi səbəbindən qlobal bazarda düyünün qiymətlərində ciddi artım müşahidə olunur: "Təbii ki, bu vəziyyət Azərbaycanın da daxil olduğu idxalçı ölkələrin bazar davranışına təsir göstərib. Artan qiymətlər fonunda Azərbaycana gətirilən düyü həcmi azalıb və bu da yerli istehsalçılar üçün nisbətən əlverişli imkan yaradıb".

Professorun sözlərinə görə, son dövrlərdə sağlam qidalanmaya marağın artması da düyü istehlakına təsir göstərib: "Bizdə düyüdən adətən, plov bişirmək məqsədilə istifadə olunur. Plov milli mətbəximizin şah yeməyi sayılsa da, sağlam qidalanmaya meyllərin artması bu yeməyə olan marağı azaldıb. Son illər istehlakçılar arasında qarabaşaq, bulqur kimi alternativ taxılların populyarlığı artmaqdadır. Bu dəyişiklik, bir tərəfdən düyüyə olan ümumi tələbatı azaltsa da, digər tərəfdən bazarda yeni çağırışlar yaradıb".



Əli Əlirzayev

## QİYMƏTLƏR DƏYİŞƏ BİLƏR

Ekspert vurğulayır ki, bu şəraitdə yerli məhsulun bazar payının artması mümkündür. Lakin keyfiyyət və çeşid baxımından yerli məhsullar hələ ki, idxal düyülərini tam əvəz edə bilmir.

Əli Əlirzayev deyir ki, düyü idxalındakı azalma Azərbaycanın ərzaq təhlükəsizliyini gücləndirmək istiqamətində atılmış önəmli addımdır. Lakin bu uğurun davamlı olması üçün kompleks tədbirlərin həyata keçirilməsi vacibdir: "Yerli istehsal artırılmalı, məhsulun keyfiyyəti yüksəldilməli və bazar tənzimlənməlidir. Əks halda, əldə olunan nəticələr uzunmüddətli olmayacaq".

**İDXALDAN ASILILIQ DAVAM EDƏCƏK**

Kənd təsərrüfatı üzrə ekspert Cəfər İbrahimlinin sözlərinə görə, son illərdə Azərbaycanda aqrar məhsullarının istehsalında artım müşahidə olunur: "Yerli istehsalın güclənməsi, xüsusilə də düyü sahəsində məhsuldarlığın yüksəlməsi diqqət çəkir. Məhsuldarlıqda müşahidə olunan artım əsasən daha keyfiyyətli toxumların əkilməsi, aqrotexniki xidmətlərin yaxşılaşdırılması və dövlət tərəfindən ayrılan subsidiyalarla bağlıdır. Subsidiyalar imkan verir ki, aqrotexniki xidmətlər daha keyfiyyətli həyata keçirilsin. Bu da nəticə etibarilə məhsuldarlığın artmasına və yerli istehsalın güclənməsinə səbəb olur. Nəticədə, düyü idxalında müəyyən azalma müşahidə edilir".

Lakin mütəxəssis onu da vurğulayır ki, yerli istehsalın artması ilə yanaşı, düyü üzrə özünütəminetmə səviyyəsi hələ də çox aşağıdır. Ölkənin bu məhsul üzrə xaricdən asılılığı davam edir və yaxın illərdə tam daxili tələbatın ödənilməsi real görünmür: "Ölkədə düyü əsasən Mərkəzi Aran və cənub bölgələrində əkilir. Digər regionlarda isə iqlim və su təminatı bu sahə üçün yetərli deyil".

Ekspertin fikrincə, bu şərtlər daxilində ölkənin ümumi düyü tələbatını daxili istehsal hesabına ödəmək hazırkı mərhələdə mümkün deyil. Bu isə o deməkdir ki, yaxın gələcəkdə də ölkə xaricdən düyü idxalını davam etdirmək məcburiyyətində qalacaq.



Akif Nəsirli

İqtisadçı ekspert Akif Nəsirli hesab edir ki, çəltikçiliyin inkişafına dair dövlət proqramlarının icrası nəticəsində bu sahədə nəzərəçarpacaq irəliləyiş əldə olunub: "Çəltik istehsalı xeyli genişlənib. İstehsal həcmi ümumi tələbatı ödəməyə yetməsə də, keyfiyyət göstəriciləri baxımından yerli düyü idxal olunan məhsulların əksəriyyətindən üstündür. İstehsalın genişlənməsi paralel olaraq ölkə daxilində bu məhsula olan marağı da artırıb. Azərbaycan düyüsü istehlak edən ailələrin sayı ildən-ilə artır. Yerli istehsalçılar artıq müəyyən bazar seqmentinə sahibdirlər. Bu, sektor üçün mühüm göstəricidir".

Ekspert əlavə edir ki, 2023-cü ildə Hindistanın düyü ixracına tətbiq etdiyi məhdudiyyətlər qlobal bazarda qiymət artımına səbəb olub. Bu vəziyyət Azərbaycanda yerli istehsalçılar üçün bir fürsətə çevrilib: "İdxalın azalması fonunda yerli istehsalçılar bazarda boşluğu doldurmaq üçün fəaliyyətlərini genişləndirdilər. Beləliklə, onlar daxili bazarda daha möhkəm mövqe tutmağa başladılar. Bu müsbət dinamika yaxın illərdə də davam edəcək. Bu, həm bazarda rəqabəti artıracaq, həm də yerli məhsula etimadı gücləndirəcək".

Bununla belə, ekspert qeyd edir ki, idxalın azalması hələlik qiymətlərə ciddi təsir göstərməyəcək: "Əgər yerli istehsalçılar bazarın 50 faizinə sahiblənsələr, bu zaman qiymətlərdə müəyyən ucuzlaşma müşahidə oluna bilər. Lakin mövcud iqlim və su ehtiyatları bu səviyyədə istehsala hələlik imkan vermir. Azərbaycanda düyü istehlakı ildə 70 min tona yaxındır. Bunun 75-80 faizi idxal hesabına qarşılanır. Hazırda yerli düyü istehsalçılarının bazar payı 15-20 faiz civarındadır".

# “Ən xoşbəxt danimarkalılar”ın YAŞADIĞI KƏND

Draqor 12-ci əsrdə qurulub və sürətlə balıqçılıq limanına çevrilib. Burada çox yaxşı qorunan tarixi binalar var. Bu gün dəniz turizmi, istirahət məqsədli balıqçılıq və yaxtaçılıq mərkəzidir.







TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Draqor zəngin tarixə malik kiçik, mənzərəli əyalətdir. Tez-tez “balıqçılıq kəndi” adlandırılır. Kəndin adı “qayıqları sahilə çəkmək” anlamı verir. Kopenhagen yaxınlığında “gizlənmiş yer”də deyirlər bu kəndə. Kopenhagen hava limanından cəmi 12 km-lik məsafədə yerləşir. Kəndi paytaxtla dəmiryolu da birləşdirir. Turizm agentlikləri kəndə günlük 200 avroya (adambaşı 25 avro) qrup turları təşkil edirlər.

### 12-Cİ ƏSRDƏ ƏSASI QOYULAN BALIQÇI KƏNDİ

Draqor 12-ci əsrdə qurulub və sürətlə balıqçılıq limanına çevrilib. Kənd zamanla ölkənin ən böyük balıqçılıq donanmalarından birinə, həmçinin balıqların duzlanması və emalı üçün bazaya sahib olub. Vikinqlər bu əyalətdə balıqçılıqla məşğul olublar.

İkinci Dünya müharibəsi zamanı Draqor Danimarka yəhudilərinin Oresund boğazından İsveçə daşınaraq xilas edilməsində mühüm rol oynayıb. Yerli əhali sakitcə, qayıqla onların bir çoxunu İsveçə daşımağı bacarıb. Kənddə İkinci Dünya müharibəsi illərində yəhudilərin xilasına həsr olunmuş abidə yer alıb.

Draqorun füsunkar limanı bu gün də balıqçı gəmilərinin və qayıqlarının lövbər yeridir. Hətta Parisin Luvr Muzeyində Draqor Limanına aid rəsm nümayiş olunur.

Bu gün Draqor “ən xoşbəxt danimarkalılar”ın yaşadığı yer kimi tanınır. Burada çox yaxşı qorunan tarixi binalar var. Kəndin köhnə hissəsi ənənəvi Danimarka üslubunda tikilmiş sarı boyalı evləri, qırmızı kirəmit və samanlı damları, daş döşənmiş küçələri olan xiyabanların yığcam, mənzərəli labirintidir. Bu tikililərin çoxunun yüz illərlə yaşı var. Evlərin demək olar ki, hamısı köhnədir - 1700-1800-cü illərdən qalıb və onlardan 100-dən çoxu dövlət mühafizəsindədir. Kirəmitli və ya samanlı dam evləri, mənzərəli daş küçələri, ətrafdakı yaşıl tarlaları, çəmənlikləri və meşələri ilə bütün kənd mühiti valehedicidir. Eyni zamanda, limanı, iş həyatı və əyləncə məkanları ilə müasir bir mərkəzdir. Evlərin qarşısında, balaca həyətlərdə, pəncərələrdə qoyulan balıq, su pərisi, qaz-ördək, yelkənli qayıq və s. fiqurlar Draqorun balıqçı kəndi olduğunu xatırladır.








Dar, labirint küçələrdə dolaşdıqca yerli sakinlərin həyatına daha yaxından tamaşa etmək olur. Bəzi evlərin qarşısındakı skamyalarda insanlar geyinmədikləri ayaqqabı, paltar və s. əşyaları qoyublar ki, ehtiyacı olanlar götürsün. Draqorun digər hissələrində kiçik yerli mağazaları ziyarət etmək maraqlıdır. Balaca dükanlarda kəndin yerli məhsulları və sənətkarların əl işləri satılır. Qiymətlər bütün Danimarkadakı kimi bahadır.

## NİDERLANDIN DANİMARKADAKI PARÇASI

Draqorun əhalisi orta əsrlərin sonlarından bəri durmadan artıb. 16-cı əsrdə əyalətə dəvət olunan holland fermerlərin təcrübəsi çox faydalı olub, onların nəsilləri hələ də orada yaşayırlar.

Yeni yaranarkən qəsəbədə yalnız 24 ailə yaşayıb. Onlar kral ailəsini məhsulla təmin etmək üçün dəvət olunublar. Beləcə qəsəbədə təsərrüfatçılığın da əsası qoyulub. Bu gün də Draqor Niderland kəndlərini xatırladan memarlığına görə tez-tez “Danimarkada Niderlandın bir parçası” adlanır. Zamanla daxili bölgələrdəki holland fermerləri ilə sahildəki danimarkalı balıqçılar və dənizçilər arasında gərginlik yaranıb.

Hazırkı əhalinin 20%-i yaxınlıqdakı Kopenhagen Kastrup Hava Limanında işləyir. Bu gün dəniz turizmi, istirahət məqsədli balıqçılıq və yaxtaçılıq mərkəzidir.

Yerli kilsə 1885-ci ildə, o dövrə xas olan neo-qotik üslubda tikilib. Draqor muzeyində əyalətin yarandığı gündən bəri tarixini əks etdirən eksponatlar nümayiş olunur.



### DİNCLİYİN, SAKİTLİYİN VƏ HÜZURUN MƏRKƏZİ

Yavaş-yavaş sahil boyu irəliləyirəm. Dənizin və yaşıllığın qoxusunu hiss edə-edə balıqçıların torlarını yığmalarına tamaşa edirəm. Sahil boyu qaçan və itləri ilə gəzən insanlara rast gəlirəm. Gülümsəyib məni Danimarka dilində salamlayırlar.

“Draqor öz ənənələri olan yerdir. Bu qəsəbədə insanların çoxu bir-birini tanıyır. Yerlilər Draqora çox əhəmiyyət verir. Bir çox ailələr burada bir neçə nəsildir yaşayır, o cümlədən mənim ailəm”, - deyə kofe içdiyim kafenin yaşlı sahibəsi danışır: “Bura fərqli bir yerdir. İnsanları balıqçılıq və təsərrüfatla məşğuldurlar. Bizim illik karusel bazarı, limanda illik şənlik, həmçinin qəsəbə meydanında Milad ağacının işıqlandırılması kimi gözəl ənənələrimiz var. İstirahət vaxtlarında insanlar taxta çəlləyin ətrafında içib sərxoş olur və mahnı oxuyurlar. Burada insanları siyasət maraqlandırmır. Kəndin ictimai həyatı xüsusidir. Mən sizə Draqora gəlməyinizi və ömrünüzün qalan hissəsini burada keçirməyinizi tövsiyə edirəm, peşman olmayacaqsınız...”

Maraqlıdır ki, bu balaca qəsəbənin A2 formatında “Dragor Nyt” adlı 16 səhifəlik rəngli qəzeti də nəşr olunur. Kafelərdə oturanların əlində, dükanların qarşısında, evlərin poçt qutusunda qəzeti görmək olur.

Hazırda Danimarkada ən bahalı evlər Draqordadır. Bu qəsəbə dincliyin, sakitliyin və hüzurun mərkəzi kimi xüsusən imkanlı insanları cəlb edir.

### ORTA ƏSR MİRVARİSİ

Axşamüstü Draqordan ayrılıram. Amma ürəyimdə yaşlı kafe sahibəsinin dediyi kimi həqiqətən bu yerdə qalmaq, bir müddət bu balaca evlərdən birində yaşamaq, səhər bir fincan qəhvə ilə güllü, dekorlu balkona çıxmaq, sahil boyu yerimək, balaca qayıqlara, dənizə tələsən balıqçılara baxmaq, yerli sakinlərin həyatına tamaşa etmək istəyi qalır. Draqor yaddaşımda Kopenhagenin yanında kiçik, bir orta əsr mirvarisi kimi qalır.









Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
İDMAN
19 İYUL ŞƏNBƏ 2025





# NƏHƏNGLƏRİN SAVAŞI

**Klublararası dünya çempionatı maliyyə baxımından olduqca səmərəli layihə kimi nəzərə çarpır. Təkcə yayım hüququnun satışından bir milyard dollardan artıq vəsait əldə edildi. Turnirin ümumi gəlirləri iki milyard dollara yaxın oldu.**

Bu il ABŞ-də keçirilən və ilk dəfə genişləndirilmiş formatda baş tutan FIFA Klublararası Dünya Çempionatı futbolda qloballaşmanın yeni mərhələsi oldu. Təşkilati baxımdan ambisiyalı, iqtisadi cəhətdən böyük əhəmiyyət daşıyan bu turnir, eyni zamanda çoxsaylı suallara və tənqidlərə yol açdı.

Klublararası dünya çempionatı ilk dəfə 32 komandanın iştirakı ilə baş tutdu. Bu baxımdan ABŞ-dakı turnir tarixə düşdü. Daha əvvəl məhdud dairədə keçirilən və konfederasiyaların az sayda təmsil olunduğu yarış bu dəfə genişmiqyaslı olması ilə fərqləndi. Lakin yenə də Avropa və Cənubi Amerika klubları Asiya və Afrika təmsilçilərini bir baş üstələdilər. Finalda "köhnə qitə"nin iki komandası - PSJ və "Çelsi" üz-üzə gəldi. İngiltərə klubu 3:0 hesablı parlaq qələbə ilə genişləndirilmiş formatda ilk turnirin qalibi adını qazandı. Turnirin ABŞ-də keçirilməsi gələn il milli komandalar arasında baş tutacaq dünya çempionatının məşqi kimi də qeyd oluna bilər.

**FUTBOLÇULAR ROBOT DEYİL**

Turnirin ən çox tənqidlərə məruz qalan tərəfi, şübhəsiz, oyun yükünün həddindən artıq olmasıdır. Çempionat Avropada futbol mövsümü başa çatdıqdan cəmi iki həftə sonra start götürdü. Futbol mütəxəssisləri bu məsələni dəfələrlə qabartsalar da, FIFA əhəmiyyət vermədi. Matçlarda ən çox meydana çıxan oyunçular artıq 60-dan çox rəsmi oyun keçirmişdi. Bu isə onların zədələnmə ehtimalını artırdı. Nəticədə bir çox məşhur futbolçu bu turniri ya zədə səbəbilə buraxdı, ya da tam formada deyildi. Məhz bu səbəbdən bəzi oyunlar gözlənilən keyfiyyəti vermədi. "Bavariya"nın ulduzu Camal Musialanın zədələnib uzun müddətə sıradan çıxması da bir növ tənqidçilərin əlini gücləndirdi.



## İQLİM VƏ MƏKAN ÇƏTİNLİKLƏRİ

ABŞ-nin qızmar yay günlərində keçirilən turnir oyunçuların dözümlülüyünü də sınağa çəkdi. Florida, Texas, Kaliforniya kimi ştatlarda havanın temperaturu 35 dərəcəyə qədər yüksəlirdi. Bəzi oyunlar gecə saatlarında keçirilsə də, bir çoxu Avropa auditoriyasına görə daha erkən saatlara salınırdı ki, bu da əlavə çətinliklər yaradırdı. ABŞ iqliminin qeyri-sabitliyi, fırtına və qasırğa ehtimalları oyunların davamlılığına manea yaratdı. Tez-tez matçlar dayanır, təxirəsalmalar olurdu. Hətta "Çelsi" ilə "Benfika"nın oyununda bir neçə saatlıq fasilə yarandı ki, bu da tənqidlərə səbəb oldu.

Digər tərəfdən, ABŞ kimi böyük ölkədə qısa müddətdə şəhərlərarası səfərlər komandalara əlavə çətinliklər yaratdı. Avropa və Cənubi Amerika azarkeşləri üçün isə bu turnir həm maliyyə, həm də coğrafi baxımdan əlçatmaz oldu. Turnirdə iştirak edən klubların fanatları oyunları əsasən ekran qarşısından izləyir, stadionlar isə bəzi hallarda yarıboş qalırdı. Orta hesabla tribunalar təxminən 60 faiz dolurdu ki, bu da dünya çempionatı üçün aşağı göstərici hesab olunur.



## BÖYÜK GƏLİR

Klublararası dünya çempionatı maliyyə baxımından olduqca səmərəli layihə kimi nəzərə çarpır. Təkcə yayım hüququnun satışından bir milyard dollardan artıq vəsait əldə edildi. Turnirin ümumi gəlirləri iki milyard dollara yaxın oldu. Beləliklə, FIFA klublar üçün böyük mükafat məbləğləri təyin etdi. Təxminən bir milyard dolların yarısı ümumi iştiraka görə paylandısa, qalan hissəsi performans əsaslı bölündü. Turnirin qalibi "Çelsi" 114 milyon dollar əldə etdi. Bu, hətta Avropada klub turnirlərinin ən böyüyü olan Çempionlar Liqasının ən güclüsünün qazandığından artıqdır. İkinci yerin sahibi PSJ 106 milyon dollar qazandı. Hətta Yeni Zelandiyadan qatılan həvəskar oyunçulardan təşkil olunmuş "Oklend Siti" belə 4,5 milyon dollara sahib çıxdı.

Bu da onlar üçün çox böyük məbləğdir. Lakin ümumi gəlirlərin bölüşdürülməsində FIFA və UEFA arasında müəyyən anlaşılmazlıqlar oldu. Bu da turnirin gələcək maliyyə perspektivlərinə mənfi təsir göstərə bilər.


ALİ RIZA FEGANİ

## YAXŞI VİTRİN, TEXNOLOJİ YENİLİKLƏR

Klublararası Dünya Çempionatı bir çox gənc oyunçuya beynəlxalq səviyyədə özünü göstərmək üçün unikal bir platforma kimi qəbul olunmalıdır. Digər tərəfdən, "Benfika", "Boka Xuniors", "Zalsburq", "Palmeyras", "Fluminense", "Flamenqo", "Botafoqo", "River Pleyt" kimi fəaliyyətini istedadlı oyunçuları üzə çıxarıb böyük məbləğlərə satmaq üzərində quran klublar üçün yaxşı fürsət demək idi. Beləliklə, turnirdən həm futbolçular, həm də klublar müəyyən mənada qazanc əldə etməyi bacardılar.

Dünya çempionatında bir sıra texnoloji yeniliklər tətbiq edildi. Oyunun hakimləri 10 sm-dən çox ofsaydda olan oyunçu topa toxunarsa, oyunu dərhal dayandırmağı bildirən sürətləndirilmiş yarı avtomatlaşdırılmış ofsayd texnologiyasından istifadə etdilər. Bu, lüzumsuz gecikmələrin azalmasına səbəb oldu. Digər tərəfdən, ilk dəfə hakimin gözündən epizodlar göstərilməyə başlandı. Bu da azarkeşlərin ciddi marağına səbəb oldu.

**BALANS TAPILMALIDIR**

Ümumilikdə Klublararası Dünya Çempionatı futbol tarixində inqilabi bir dəyişiklik idi. Qloballaşma, texnologiya, yeni istedadlar, iqtisadi imkanlar baxımından əhəmiyyətli addımlar atıldı. Lakin idman ədaləti, oyunçu rifahı, ədalətli iştirakçı seçimi və azarkeş məmnuniyyəti kimi fundamental prinsiplər qorunmadıqda bu, sadəcə bir kommersiya məhsuluna çevrilə bilər. Qarşıdakı illərdə FIFA bu balansı qurmaq və qorumaq kimi tarixi bir missiyanı öz öhdəsinə götürməli və çatışmazlıqları həll etməlidir.